6 noyabr 2024 №82 (2147)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident İlham Əliyevə “Çingiz Aytmatov” ordeni təqdim olunub

### Dövlətimizin başçısı Bişkekdə səfərdədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Türk Dövlətləri Təşkilatı (TDT) Dövlət Başçılarının 11-ci Zirvə görüşündə iştirak etmək üçün Qırğız Respublikasının paytaxtı Bişkekə gedib.

Zirvə görüşünün əsas toplantısı noyabrın 6-na nəzərdə tutulub. Bu ərəfədə Bişkekə gələn liderlərin müvafiq səfər proqramları var.

***

Noyabrın 5-də Prezident İlham Əliyev görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun (1928–2008) ev-muzeyinə gəlib. Dövlətimizin başçısı muzeylə tanış olub.

Məlumat verilib ki, muzey Bişkek yaxınlığındakı “Ala-Arça” dövlət iqamətgahında – 1986-cı ildən yazıçının yaşadığı evdə yerləşir. Onun vəfatından sonra həyat yoldaşı Mariya Aytmatova və oğlu Eldar ailəsi ilə burada yaşayırlar. Ev-muzeyi həyat yoldaşı, övladları Eldar və Şirinin təşəbbüsü ilə 2014-cü il dekabrın 12-də, yazıçının anadan olmasının 86-cı ildönümündə açılıb.

Burada yazıçının şəxsi əşyaları, əlyazmaları və mükafatları qorunub saxlanılır. İkinci mərtəbədə onun kabineti, yataq otağı və kitabxana yerləşir.

Evin ikinci hissəsində Eldar Aytmatov və ailəsi yaşayır. Mədəni-maarif fəaliyyəti ilə məşğul olan Çingiz Aytmatov Beynəlxalq Fondu da burada yerləşir. Fond 2000-ci ildə yazıçının özü tərəfindən təsis edilib, indi onun övladları tərəfindən idarə olunur.

İlham Əliyev ev-muzeyinin xatirə kitabına ürək sözlərini yazıb.

Qeyd edək ki, dünyaca məşhur yazıçının bədii irsinə Azərbaycanda da böyük maraq var. Ulu öndər Heydər Əliyev onu “Türk dünyasının fəxri” adlandırıb. Prezident İlham Əliyev 2008-ci ildə Azərbaycanın “Dostluq” ordenini ilk olaraq Çingiz Aytmatova təqdim edib. 2024-cü il aprelin 24-də Bakıda Azərbaycan və Qırğızıstan prezidentlərinin iştirakı ilə Çingiz Aytmatovun abidəsi açılıb.

***

Muzeydə Prezident İlham Əliyevə “Çingiz Aytmatov” ordeni təqdim edilib.

*davamı səh. 2-də*

## Kitabla, söz sənəti ilə rövnəqlənən qardaşlıq

### Azərbaycan 41-ci İstanbul Beynəlxalq Kitab Sərgisinin “fəxri qonağı” oldu

Xəbər verdiyimiz kimi, 2–10 noyabr tarixlərində 41-ci İstanbul Beynəlxalq Kitab Sərgisi keçirilir. TÜYAP kompleksində “Uşaqlıq şənlikdir” şüarı altında təşkil olunan builki sərgi ölkəmiz üçün xüsusilə əlamətdardır. Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan ilk dəfə sərgidə “fəxri qonaq ölkə” qismində iştirak edir.









Sərginin açılışında İstanbul valisi Davud Gül, İstanbul Böyükşəhər Bələdiyyəsinin başqanı Ekrem İmamoğlu, TÜRKSOY-un baş katibi Sultan Raev, Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Fərid Cəfərov, Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Kitabxanalar və Nəşriyyatlar Baş İdarəsinin rəhbəri Taner Bəyoğlu, Türkiyə Yayınçılar Birliyinin sədri Kenan Kocatürk, Azərbaycan Yazıçılar Birliyi sədrinin birinci müavini Xalq yazıçısı Çingiz Abdullayev, Azərbaycanın Xalq yazıçısı Elçin, eləcə də ölkəmizdən və Türkiyədən tanınmış və gənc yazarlar iştirak ediblər.

TÜYAP Sərgi və Konqres Mərkəzinin rəhbərliyindən İlhan Ersözlü çıxış edərək 41-ci İstanbul sərgisi münasibətilə təbriklərini çatdırıb, sərgi haqqında məlumat verib.

Bildirilib ki, 9 gün davam edəcək sərgidə Türkiyədən və xaricdən 2000-dən çox yazar iştirak edir. Sərgi çərçivəsində 200-dən çox imza mərasimi daxil olmaqla, ümumilikdə 450-dək tədbir təşkil olunacaq.

Azərbaycan mədəniyyət nazirinin müavini Fərid Cəfərov çıxış edərək tədbir iştirakçılarını salamlayıb, belə bir nüfuzlu sərginin “fəxri qonaq ölkə”si olmaqdan məmnunluq duyduqlarını diqqətə çatdırıb.

Bildirilib ki, Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin “Bir millət, iki dövlət” kimi səciyyələndirdiyi Azərbaycan və Türkiyə eyni etnik-mədəni köklərə malik olmaqla zəngin ortaq dəyərləri paylaşmaqdadır. Tarixdən gələn bu yaxınlığın möhkəmlənməsində, xalqlarımızın qədim və zəngin mədəniyyəti və ədəbiyyatı əsas rol oynayıb.

Qeyd olunub ki, türk ədəbiyyatının böyük simaları Rəşad Nuri Güntəkin, Yaşar Kamal, Nazim Hikmət, Əziz Nesin kimi yazarların əsərləri Azərbaycanda böyük rəğbətlə qarşılanıb, dəfələrlə nəşr edilib: “Bu gün də ölkəmizdə türk ədəbiyyatının tanınmış simalarının əsərlərinin tərcüməsi və təbliği işi davam etdirilir. Eyni zamanda məşhur Azərbaycan yazarları Hüseyn Cavid, Əhməd Cavad, Yusif Vəzir Çəmənzəminli, Almas İldırım, Əhməd Ağaoğlu, Bəxtiyar Vahabzadə və başqalarının əsərlərinin Türkiyə oxucuları tərəfindən sevilməsi bizləri fərəhləndirir. Əhməd Cavadın qələmə aldığı, dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin musiqi yazdığı və Qafqaz İslam Ordusunun marşı kimi səslənən “Çırpınırdın, Qara dəniz” şeiri xalqlarımızın dilinin əzbəridir”.

*davamı səh. 3-də*

## Azərbaycanın narlı xalçaları Latviya muzeyində

Latviya paytaxtındakı “Riqa Art Nouveau” muzeyində Azərbaycanın bu ölkədəki səfirliyi, “Azərxalça” ASC və Azərbaycan Fotoqraflar Birliyinin birgə təşkilatçılığı ilə “Toxunmuş nar: möhtəşəm Azərbaycan relyef xalçaları” adlı sərgi açılıb.



Azərbaycanın Latviyadakı səfiri Elnur Sultanov çıxış edərək sərgini ölkəmizin mədəniyyəti ilə daha da yaxından tanışlıq nöqteyi-nəzərindən əlamətdar hadisə kimi dəyərləndirib. Bildirib ki, sərgi iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinə təsadüf edir.

Diqqətə çatdırılıb ki, Azərbaycan xalçaçılıq sənəti və nar bayramı UNESCO-nun Qeyri-Maddi Mədəni İrsnin Reprezentativ Siyahısına daxil edilib və hər iki irs nümunəsi sərgidə əksini tapıb.

Direktor Aqrita Tipane “Riqa Art Nouveau” muzeyində Azərbaycan mədəniyyətinə dair ikinci sərginin keçirildiyini, nümayiş etdirilən xalçaların bənzərsiz xüsusiyyətlərə malik olduğunu, Azərbaycan xalçaçılıq sənətinin və nar bayramının Latviyada böyük maraq doğurduğunu söyləyib. O, bu yaxınlarda səfirlik tərəfindən Latviya ictimaiyyətinə təqdim edilmiş “UNESCO-da Azərbaycanın əbədi sərvətləri” kitabından da söz açaraq ölkəmizin zəngin mədəni irsə sahib olduğunu vurğulayıb.

Tədbir iştirakçılarına “Bağçada meyvələr” kolleksiyası, “Azərxalça”nın fəaliyyəti və nar bayramı haqqında videoçarxlar təqdim olunub.

Qeyd edək ki, 3D texnologiyası ilə toxunmuş narlı xalçalar “Azərxalça”nın gənc rəssam Samirə Allahverdiyeva ilə birgə əməkdaşlıq layihəsi olan “Bağçada meyvələr” kolleksiyasından ilhamlanaraq yaradılıb. Eyni zamanda, Azərbaycan Fotoqraflar Birliyinin dəstəyi ilə nar mövzusuna dair fotosərgi təşkil edilib.

Tədbirin sonunda milli mətbəximizin təamları, o cümlədən UNESCO siyahısına daxil edilmiş dolma, habelə çay süfrəsi, nar məhsulları iştirakçılara təqdim olunub.

Sərgi bir ay ərzində ictimaiyyət üçün açıq olacaq.

## COP29-a son hazırlıqlar görülür

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 4-də Bakı Olimpiya Stadionunun ərazisində COP29-la bağlı yaradılan şəraitlə tanış olublar.




COP29-un rəsmi “Mavi zona”sında açılış mərasiminin keçiriləcəyi “Nizami” plenar iclas zalı, İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammiti üçün hazırlanan məkanlar, eləcə də rəsmi danışıqların aparılacağı sahələrdə təşkil edilən çoxfunksiyalı müxtəlif görüş otaqlarına, eləcə də tədbir günlərində istifadə ediləcək elektrikli nəqliyyat vasitələrinə baxıblar.

*səh. 2*

## “Zəfərimiz – şərəfimiz”: qiraət müsabiqəsi



Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə 44 günlük Vətən müharibəsində Zəfərin 4-cü ildönümünə həsr olunmuş “Zəfərimiz – şərəfimiz” adlı bədii qiraət müsabiqəsi keçirilib.

4–5 noyabr tarixlərində keçirilən müsabiqədə Akademik Milli Dram Teatrı, Akademik Rus Dram Teatrı, Milli Gənc Tamaşaçılar Teatrı və rayon teatrlarının artistləri, eləcə də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini təmsil edən qiraətçilər və iki müstəqil iştirakçı çıxış ediblər.

Çıxışları Xalq artistləri Hacı İsmayılov, İlham Namiq Kamal, Əməkdar artist Azad Şükürov, Əməkdar incəsənət xadimi Hafiz Quliyev və ATXİ-nin məsul katibi Aidə Qafarovanın daxil olduğu münsiflər heyəti qiymətləndirib.

Müsabiqənin nəticələri barədə növbəti sayımızda.

## “Təbiətdə tarazlıq”

### Bakıda italiyalı monumental heykəltaraşın sərgisi



Noyabrın 1-də Heydər Əliyev Mərkəzində tanınmış italiyalı monumental heykəltaraş Lorenso Kuinnin (Lorenzo Quinn) “Təbiətdə tarazlıq” (“Equilibrium in Nature”) adlı sərgisi açılıb.

Sərginin Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində təşkil olunması təsadüfi deyil. “Təbiətdə tarazlıq” ekspozisiyası diqqəti ekoloji məsələlərə yönəldir, sərginin konsepsiyasının əsasını isə ətraf mühitin dərk olunması, təbiətə qayğı ideyası təşkil edir.

Açılış mərasimindən əvvəl heykəltaraş bu barədə deyib: “İnanılmaz məkanda bu sərgini təşkil etmək məni çox həyəcanlandırır. Şadam ki, sərgim COP29 ilə üst-üstə düşür, çünki mənim sənət əsərlərimin hər biri özlüyündə bir universal mesajdır. Bu mesaj sevgini, sülhü və davamlılığı tərənnüm etdirir”.

*davamı səh. 8-də*

## Çoxəsrlik ədəbiyyat tariximizin 85 yaşlı muzeyi

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi yaradılmasının 85 illiyini qeyd edir. Bu münasibətlə mədəniyyət naziri Adil Kərimli noyabrın 1-də muzeydə olub, kollektivlə görüşüb.

Muzeyin direktoru akademik Rafael Hüseynov bildirib ki, xalqımızın ədəbiyyat tarixini ən qədim zamanlardan müasir dövrə qədər əks etdirən muzey Azərbaycanın qədim mədəniyyətinin, zəngin ədəbi irsinin təbliğatçısı olmaq kimi şərəfli missiyanı həyata keçirir.

*səh. 3*

Gəncə Dövlət Filarmoniyasının layihələri



*səh. 4*



Cahangir Cahangirovun mahnıları səslənib

*səh. 5*

# Prezident İlham Əliyevə “Çingiz Aytmatov” ordeni təqdim olunub

## Dövlətimizin başçısı Bişkekdə səfərdədir



*əvvəli səh. 1-də*

Çingiz Aytmatov Fondunun prezidenti Eldar Aytmatov çıxış edərək deyib: “Bu gün mən “Çingiz Aytmatov” ordenini Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə təqdim etmək şərəfinə nail oluram. Bu mükafat dərin hörmətin və yüksək nüfuzun rəmzidir. Bu, humanist dəyərlərin möhkəmləndirilməsinə, mədəni dialoqun dəstəklənməsinə və böyük yazıçımızın yaradıcı irsinin qorunub saxlanılmasına Sizin verdiyiniz müstəsna töhfəyə görə minnətdarlıq əlamətidir.

Çingiz Aytmatov yalnız yazıçı deyil, həm də xalqlar arasında sülh, qarşılıqlı anlaşma və birlik ideyalarını təbliğ edən əsl körpü olub. Cənab Prezident, bu gün biz bu prinsiplərin Sizin fəaliyyətinizdə necə təcəssüm etdiyini görürük. Sizin rəhbərliyinizlə Azərbaycan mədəniyyətlərarası mübadilənin və əməkdaşlığın təşəbbüskarı kimi çıxış edir, digər ölkələrlə dinc və yaradıcı münasibətləri təşviq edir... İnanırıq ki, Sizin səyləriniz sayəsində Aytmatovun adı bundan sonra da xalqları birləşdirəcək, mədəni tərəqqi və humanizm rəmzi olacaqdır.

Dərin hörmət və qürur hissi ilə Sizə müasir dünyada və ümumi mədəni irsimizin qorunub saxlanılmasında oynadığınız rola verilən yüksək qiymətin əlaməti olan “Çingiz Aytmatov” ordenini təqdim edirəm”.

Eldar Aytmatov onu da diqqətə çatdırıb ki, ilk dəfə Azərbaycanın bir nömrəli “Dostluq” ordeni Çingiz Aytmatova təqdim edilib, indi isə bir nömrəli “Çingiz Aytmatov” ordeni Azərbaycan Prezidentinə təqdim olunur.

***

Prezident İlham Əliyev fəaliyyətinə verilən bu qiymətə görə Çingiz Aytmatov Fonduna, yazıçının ailə üzvlərinə və yaxınlarına minnətdarlığını bildirib. Qeyd edib ki, bu ordeni Aytmatovun yaşadığı, işlədiyi, yazıb-yaratdığı, ruhunun indi də dolaşdığı evdə almaq mənim üçün böyük şərəfdir: “Onun yaradıcılığı bütün dünyaya məxsusdur. Qeyd etdiyiniz kimi, onun kitabları 185 dilə, demək olar ki, bütün dillərə tərcümə olunub. Bu gün sizdən öyrəndim ki, onun kitablarının yenidən, xüsusən, yeni tərcümədə nəşrinə tələbatın olması onu göstərir ki, Çingiz Aytmatovun həyata, insanlara, təbiətə, öz xalqına münasibətdə sözünə, fikirlərinə ehtiyac var. Sözsüz ki, onun yaradıcılığı bütün mümkün sədləri ötüb keçib və əbədi olaraq oxucuları sevindirəcək, düşünməyə, yəqin ki, bir çox məsələləri yenidən başa düşməyə sövq edəcək. Onun yaradıcılığını çox sevən və bir çox əsərlərini oxuyan insan kimi deyə bilərəm ki, onlar səni düşünməyə, hətta cəmiyyətə, dünyaya, təbiətə, öz fəaliyyətinə nəzər salmağa vadar edir. Atam Heydər Əliyevin dediyi kimi, Çingiz Aytmatov təkcə qırğız xalqının deyil, həm də bütün Türk dünyasının fəxridir. Artıq dediyim kimi, o, dünyaşöhrətli yazıçı, ictimai xadim idi və əsərləri müxtəlif mədəniyyətlərə məxsus insanlar tərəfindən başa düşülürdü. Amma, eyni zamanda, onun əsərlərini oxuduqda görürsən ki, Çingiz Aytmatov məhz öz ölkəsinin, öz xalqının problemlərinə dərindən nüfuz edirdi, öz xalqının nümayəndələrini təsvir edirdi. Yəni, o, sırf milli yazıçı idi, eyni zamanda, bütün dünya tərəfindən başa düşülürdü. Zənnimcə, onun mütəfəkkir kimi nadirliyinin sirri də bundadır”.

Dövlətimizin başçısı Aytmatovun 2008-ci ildə Azərbaycana son səfərini, onunla görüşünü də xatırlayıb: “O, Bakıya yaxşı əhvali-ruhiyyədə gəlmişdi, biz onunla çoxlu söhbət etdik, o, gələcək planlarından danışırdı, çox yaxşı görünürdü, mən buna ürəkdən sevindim. Amma bir neçə aydan sonra o, vəfat etdi. Əlbəttə, bu, kədər hissi doğurur, çünki o, hələ yaşaya, öz yaxınlarını sevindirə, onları qayğısı və şəfqəti ilə əhatə edə, həmçinin məhz bu gün aktual olan xeyli sayda əsər yarada bilərdi. Çünki onun bu dünyadan köçdüyü vaxtdan bəri həm bizim regionumuzda, həm də dünyada çoxlu hadisələr baş verib, zənnimcə, onun sözü çox mühüm olardı, təkcə bizim regionumuz üçün deyil, həm də ümumilikdə dünya siyasəti üçün. Çünki o, yaradıcılıq fəaliyyəti ilə yanaşı, həmçinin çox nüfuzlu ictimai xadim idi”.

Prezident çıxışının sonunda Çingiz Aytmatovun ocağına dəvət edildiyi və bu mükafata layiq görüldüyü üçün təşəkkürünü ifadə edib.

Sonra İlham Əliyev və Çingiz Aytmatovun ailə üzvləri birgə çay süfrəsi arxasında söhbət ediblər.

Sonda qarşılıqlı xatirə hədiyyələri təqdim olunub.

# COP29-a son hazırlıqlar görülür

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 4-də Bakı Olimpiya Stadionunun ərazisində COP29-la bağlı yaradılan şəraitlə tanış olublar.



Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma burada yaradılan şərait barədə məlumat verib.

Prezident və birinci xanım COP29-un keçiriləcəyi tarixlərdə (11–22 noyabr) tədbir məkanı ərazisində istifadə ediləcək yük və sərnişindaşıma, eləcə də tibbi və yanğınsöndürmə üçün nəzərdə tutulan elektrikli minimobillər, Sammit zamanı yüksəksəviyyəli qonaqların ərazidə hərəkətini təmin etmək üçün istifadə olunacaq qolf-mobillər və elektrikli avtobuslar, həmçinin tədbir günlərində şəhər ərazisində hərəkət edəcək digər elektrikli nəqliyyat vasitələrinə baxıblar.

COP29-un rəsmi “Mavi zona”sında açılış mərasiminin keçiriləcəyi “Nizami” plenar iclas zalı, İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammiti üçün hazırlanan məkanlar, eləcə də rəsmi danışıqların aparılacağı sahələrdə təşkil edilən çoxfunksiyalı müxtəlif görüş otaqları ilə tanışlıq olub. Qeyd edilib ki, burada Azərbaycanın mədəniyyəti və təbiətini təbliğ edən müxtəlif ekspozisiya və sərgilər var. Bildirilib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına yaxın günlərdə təhvil veriləcək “Mavi zona”da hazırda COP29 çərçivəsində pre-sessiya görüşləri keçirilir.

Dövlətimizin başçısı və birinci xanım akkreditasiya və qeydiyyat prosesləri ilə tanış olublar. Bu günədək konfransda qeydiyyatdan keçmiş nümayəndə heyətləri ilə bağlı ətraflı məlumat verilib, tədbirə böyük marağın olduğu bildirilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycan və digər ölkə pavilyonlarının tikinti prosesləri ilə tanış olub, müxtəlif maraqlı tərəflərin iştirakı ilə geniş iştirakçı auditoriyası, eləcə də ictimaiyyət üçün açıq platforma rolunu oynayacaq “Yaşıl zona”da olublar, Heydər Əliyev Fondu və Sıfır Atık Fondunun birgə pavilyonu olan Həmrəylik mərkəzi, həmçinin digər tərəfdaşların və ölkələrin sərgi stendlərinə baxıblar. “Yaşıl zona”nın ümumi konsepti, bu zonada keçiriləcək yüksəksəviyyəli konfrans və tədbirlər barədə ətraflı məlumat verilib.

# Dövlət Pantomima Teatrının binası təmir ediləcək

## Birinci vitse-prezident Mehriban Əliyeva teatrda olub

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və ailə üzvləri oktyabrın 31-də Azərbaycan Dövlət Pantomima Teatrının binasında mövcud vəziyyətlə tanış olublar.



Mədəniyyət naziri Adil Kərimli Birinci vitse-prezident Mehriban Əliyevaya və ailə üzvlərinə teatr haqqında məlumat verib.

Bildirilib ki, respublikamızın tanınmış teatr kollektivlərindən olan Azərbaycan Dövlət Pantomima Teatrı 1994-cü ildə teatr-studiya kimi yaradılıb. Studiya altı il müddətində Gənc Tamaşaçılar Teatrının nəzdində fəaliyyət göstərib. 2000-ci il martın 6-da kollektivə dövlət statusu verilib. 2005-ci ildən Azərbaycan Dövlət Pantomima Teatrı keçmiş “Şəfəq” kinoteatrının binasında yerləşir.

Pantomima teatrı böyük tamaşaçı rəğbəti qazanan mədəniyyət ocaqlarımızdan biridir. Teatrın bu növünün əsas üstünlüklərindən biri onun üçün dil baryerinin olmamasıdır. Ötən müddət ərzində kollektiv Almaniya, Avstriya, Bolqarıstan, İsveçrə, Gürcüstan, Qazaxıstan, Mərakeş, Rusiya və digər ölkələrdə Azərbaycan mədəniyyətini uğurla təmsil edib.

Qeyd edilib ki, Azərbaycan Dövlət Pantomima Teatrının hazırda yerləşdiyi bina 1900-cü ildə inşa olunub və yerli əhəmiyyətli memarlıq abidələri siyahısındadır.

Mövcud vəziyyətlə tanışlıq zamanı binada görülməli olan zəruri təmir işləri barədə də məlumat verilib.

# “Dünya dinləri yaşıl planet uğrunda”

## Bakıda dünya dini liderlərinin sammiti

Noyabrın 5-də Prezident İlham Əliyevin təşəbbüsü və himayədarlığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində “Dünya dinləri yaşıl planet uğrunda” mövzusunda Dünya dini liderlərinin qlobal Bakı Sammiti işə başlayıb.




Sammit Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Beynəlxalq Müsəlman Ağsaqqallar Şurası, Qafqaz Müsəlmanları İdarəsi və BMT-nin Ətraf Mühit Proqramı tərəfindən təşkil olunub.

Sammitin açılış mərasimində Baş nazir Əli Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakçılara müraciətini oxuyub.

“Bu gün dünyamızın üzləşdiyi iqlim dəyişmələri, atmosferin və ətraf mühitin çirklənməsi, quraqlıq və səhralaşma, biomüxtəlifliyin itirilməsi, su qıtlığı, ərzaq çatışmazlığı və bu kimi digər qlobal ekoloji problemlər bəşəriyyətin mövcudluğu və gələcəyi üçün ciddi təhdidlər yaratmaqdadır. İqlim böhranı və ekoloji təhlükəsizlik məsələləri dünya dövlətlərinin birgə əməkdaşlığını, beynəlxalq ictimaiyyətin bütün səviyyələrdə səylərinin birləşdirilməsini zəruri edir. COP tədbirlərində inklüzivlik prinsiplərinə uyğun olaraq nüfuzlu dini liderlərin bir araya gəlməsini, planetimizin taleyi naminə onların narahatlığını və ümumi işə töhfə vermək əzmini yüksək qiymətləndirirəm”, – deyə müraciətdə bildirilir.

Diqqətə çatdırılır ki, Azərbaycan yaxın tarixi keçmişində əsassız ərazi iddialarına məruz qalaraq ədalətsiz müharibəyə cəlb edilib, bu qanlı savaşın ağır fəsadlarını yaşamalı olub: “Siz Azərbaycanın əzəli torpağı olan Qarabağa səfəriniz zamanı Ermənistan tərəfindən 30 illik işğal dövründə törədilmiş ekosid, kultursid və urbisid kimi cinayətkar əməllərin acı nəticələrini əyani şəkildə görmək imkanı qazanacaq, ölkəmizin bölgədə ekoloji tarazlığı bərpa etmək istiqamətində yaşıl iqtisadiyyata, bərpaolunan enerjiyə əsaslanan genişmiqyaslı yenidənqurma işləri ilə bilavasitə tanış ola biləcəksiniz”.

Açılış mərasimində BMT-nin baş katibi Antonio Quterreşin sammit iştirakçılarına videomüraciəti də təqdim olunub.

Qeyd edək ki, ikigünlük sammitdə 30-a yaxın din liderləri, dini mərkəzlərin başçıları, müxtəlif konfessiyaları, ümumilikdə 55 ölkəni və 30 beynəlxalq təşkilatı təmsil edən dövlət, elm və din xadimləri nümayəndələri iştirak edirlər.

Dünya dini liderlərinin I və II Dünya sammitlərinə ev sahibliyi etmiş Azərbaycanda COP29 çərçivəsində keçirilən budəfəki sammit bəşəri əhəmiyyət daşıyan, planetimizin gələcəyi üçün həyati önəm kəsb edən konkret problemin – iqlim dəyişmələri probleminin mənəvi dəyərləndirilməsi işinə real töhfələr vermək məramı daşıyır.

# Bakıda yeni yaşıl məkan

Prezident İlham Əliyev noyabrın 1-də Bakı Dəmiryol Vağzalının və metronun “28 May” stansiyasının qarşısındakı ərazidə aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.



Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına Puşkin küçəsinin Azadlıq prospekti ilə birləşməsindən Dilarə Əliyeva küçəsi ilə kəsişməsinədək olan hissəsində – Bakı Dəmiryol Vağzalı və metronun “28 May” stansiyasının qarşısındakı ərazidə görülmüş işlər barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 3,5 hektar olan ərazidə minik avtomobillərinin hərəkəti ləğv edilərək, müasir tələblərə cavab verən avtobus, piyada və velosiped zolaqları yaradılıb. Köhnə döşəmə örtükləri ləğv edilərək, qranit bordürlər düzülüb. Ərazidə ümumi sahəsi təqribən 2300 kvadratmetr olan yaşıllıq yaradılıb, İtaliyadan gətirilmiş 200-dən çox ağac, 15 mindən çox kol əkilib, işıqlandırma işləri aparılıb, oturacaqlar quraşdırılıb. Həmçinin müasir tikinti norma və qaydalarına cavab verən 2 fəvvarə, 2 dayanacaq inşa edilib, elektrik avtobusları üçün 4 enerjidoldurma məntəqəsi quraşdırılıb.

# “Nəsildən-nəslə teatr” layihəsi davam edir

## Növbəti qonaq yazıçı-dramaturq İlqar Fəhmi olub



Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) “Nəsildən-nəslə teatr” layihəsi davam edir.

Layihə çərçivəsində noyabrın 4-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının kiçik səhnəsində “Dramaturgiya: əvvəldə söz var idi” adlı panel keçirilib.

Panelin qonağı yazıçı-dramaturq İlqar Fəhmi gənclərlə dramaturgiya sənətinin sirləri, nəzəri-praktiki əsasları, yeni yaradıcı tendensiyalar, postmoderniz-postdramatizm fəlsəfəsi müstəvisində teatr və mətn kimi mövzularda fikir mübadiləsi aparıb.

O, həmçinin mədəni, tarixi məqamlara da toxunaraq sözün gücünün onun düzgün çatdırılmasında olduğuna diqqət çəkib.

Qeyd edək ki, “Nəsildən-nəslə teatr” layihəsi üzrə seminar və görüşlərin keçirilməsində məqsəd nəsillər arasında fikir və təcrübə platforması yaratmaqla Azərbaycanda teatr prosesinin inkişafına töhfə vermək, bu sahəyə marağı artırmaq, gəncləri teatra cəlb etmək və aktiv yaradıcı mühit formalaşdırmaqdır.

# Elmi Bərpa Mərkəzinin Rusiya institutu ilə əməkdaşlıq sazişi yenilənib

Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzi (MSXƏEBM) ilə Rusiyanın Bərpa üzrə Dövlət Elmi-Tədqiqat İnstitutu (QosNİİR) arasında əməkdaşlıq davam edir.



Elmi Bərpa Mərkəzinin direktoru Zərifə Məlikova və direktor müavini İranə Allahverdiyeva bu əməkdaşlıq çərçivəsində bağlanmış sazişi yeniləmək, habelə QosNİİR-in dəvəti ilə 30-31 oktyabr tarixlərində keçirilən və institutun Dəzgah tempera boyakarlığının elmi bərpası şöbəsinin 65 illik yubileyinə həsr olunan “XXI Lelekov mühazirələri”nə qatılmaq üçün Moskvaya səfər ediblər.

Mərkəzlə QosNİİR arasında qarşılıqlı mübadilə və əməkdaşlıq barəsində saziş yenilənərək imzalanıb.

Mərkəzin direktoru Zərifə Məlikova “XXI Lelekov mühazirələri”ndə “Ağac heykəllərin bərpasında MSXƏEBM-in rolu” adlı təqdimatla, İranə Allahverdiyeva isə “MSXƏEBM-də bərpa olunan ikonaların tədqiqi problemləri” adlı məruzə ilə çıxış ediblər.

Tədbir zamanı Rusiya Federasiyasının Əməkdar incəsənət xadimi, Moskva şəhərinin fəxri bərpaçısı, rəssam, akademik O.V.Yaxontun “Bədii və elmi yaradıcılığın səhifələri” ikicildliyinin təqdimatı olub. Kitab müəllif tərəfindən Azərbaycan nümayəndələrinə təqdim edilib.

# Çoxəsrlik ədəbiyyat tariximizin 85 yaşlı muzeyi

## Mədəniyyət naziri muzeyin kollektivi ilə görüşüb



Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi yaradılmasının 85 illiyini qeyd edir. Bu münasibətlə mədəniyyət naziri Adil Kərimli noyabrın 1-də muzeydə olub, kollektivlə görüşüb.

Muzeyin direktoru, Milli Məclisin sədr müavini akademik Rafael Hüseynov mədəniyyət ocağının tarixindən söz açıb. Qeyd edib ki, muzey dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 800 illik yubileyinə hazırlıq ərəfəsində Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1 noyabr 1939-cu il tarixli qərarı ilə yaradılıb. II Dünya müharibəsi səbəbindən muzeyin açılışı 1945-ci il mayın 14-də olub.

Akademik bildirib ki, xalqımızın ədəbiyyat tarixini ən qədim zamanlardan müasir dövrə qədər əks etdirən muzey Azərbaycanın qədim mədəniyyətinin, zəngin ədəbi irsinin təbliğatçısı olmaq kimi şərəfli missiyanı həyata keçirir. Bu gün muzeyin müasir dünya standartlarına cavab verən, tam kompüterləşdirilmiş, innovativ vasitələrlə zənginləşdirilmiş ekspozisiyası Azərbaycan ədəbiyyatının inkişaf mərhələlərini əhatə edir. Dünyanın hər yerindən Azərbaycana gələn qonaqlar Ədəbiyyat Muzeyini məmnunluq hissi ilə ziyarət edirlər. Ekspozisiyada qədim əlyazmalar, rəsm əsərləri, xalçalar, nadir çap kitabları, nəfis miniatürlər, məşhur xəttatların əlyazmaları, numizmatika nümunələri, yazıçıların xatirə əşyaları, sənədli fotoşəkillər və s. qorunur, nümayiş etdirilir.

Diqqətə çatdırılıb ki, muzeyin yenilənmiş ekspozisiyasında monitorlar vasitəsilə ziyarətçilər qiymətli audio-video materiallarla – müxtəlif filmlərdən, səhnə əsərlərindən fraqmentlərlə, görkəmli Azərbaycan bəstəkarlarının əsərləri, tanınmış aktyorların ifasında poeziya nümunələri ilə tanış ola bilərlər. Muzeyin fondları tədqiqatçı alimlər üçün geniş imkanlar yaradır.

Mədəniyyət naziri Adil Kərimli bildirib ki, Milli Azərbaycan Ədəbiyyatı Muzeyi milli dəyərlərimizi yaşadan bir ocaqdır: “Muzeyin yaranma tarixi Nizami Gəncəvinin adı ilə bağlı olsa da, o, Azərbaycanın zəngin ədəbiyyat tarixini və bütövlükdə qeyri-maddi mədəni irsini özündə ehtiva edən böyük bir mərkəzdir. Muzey uzun illər Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində fəaliyyət göstərərək böyük bir dəst-xətt qoyub. Muzeyin hazırda Mədəniyyət Nazirliyi sistemində olması bizim üçün xüsusi əhəmiyyət daşıyır. Bu gün Azərbaycanın mədəniyyət siyasəti elmə, təhsilə, ümumiyyətlə, maarifləndirməyə köklənmiş bir istiqamət götürüb. Bu, Prezident İlham Əliyevin siyasətinin əsas istiqamətidir. Azərbaycanın ədəbiyyat və mədəniyyətinin qorunmasında, təbliğində bu muzeyin xüsusi rolu var”.

Nazir 85 illik yubiley münasibətilə muzeyin kollektivini təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə və muzeyin yaradılmasının 85 illik yubileyi münasibətilə kollektiv Mədəniyyət Nazirliyinin Fəxri diplomu ilə təltif olunub.

Fəxri diplom direktor Rafael Hüseynova təqdim edilib, xatirə şəkli çəkdirilib.

Görüşdən sonra nazir muzeyin zəngin ekspozisiyası ilə tanış olub.

**Nurəddin**

# Mədəniyyət Nazirliyində Xalq artisti Yalçın Adıgözəlovla görüş

Noyabrın 4-də tanınmış dirijor, Xalq artisti, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru Yalçın Adıgözəlovun 65 yaşı tamam olub. Bu münasibətlə Mədəniyyət Nazirliyində sənətkarla görüş keçirilib.




Mədəniyyət naziri Adil Kərimli yubileyi münasibətilə musiqi xadimini nazirliyin kollektivi və mədəniyyət ictimaiyyəti adından təbrik edib, ona xoş arzularını çatdırıb.

Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva tərəfindən ölkəmizdə mədəniyyətin digər sahələri kimi, musiqi sahəsinin də inkişafına davamlı diqqət və qayğı göstərilir. Musiqimizin inkişafında xidmətləri olan insanların əməyi yüksək qiymətləndirilir. Yalçın Adıgözəlov da bu sahədəki fəaliyyətinə görə “Xalq artisti” fəxri adına layiq görülüb, “Şöhrət” ordeni ilə təltif olunub.

Qeyd olunub ki, Yalçın Adıgözəlov klassik repertuara malik çoxsaylı Bakı premyeralarının təşkilini və Azərbaycan bəstəkarlarının əsərlərinin dünyada aktiv təbliğatını həyata keçirərək, ölkəmizdə və xaricdə simfonik orkestrlərlə geniş konsert fəaliyyəti göstərib.

Görüşdə Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə yubilyara nazirliyin fəxri diplomu təqdim edilib.

Yalçın Adıgözəlov yaradıcılığına verilən qiymətə və təbrikə görə təşəkkürünü bildirib. Söhbət zamanı musiqi sahəsinin inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, professor Yalçın Adıgözəlov 30 ilə yaxındır ki, Bakı Musiqi Akademiyasında pedaqoji fəaliyyətlə də məşğuldur. Onun tələbələri respublikanın aparıcı dirijorlarıdır. Xalq artisti 2023-cü ildən Heydər Əliyev Sarayının nəzdində fəaliyyət göstərən Niyazi adına Dövlət Simfonik Orkestrinin bədii rəhbəri-baş dirijorudur.

# Kitabla, söz sənəti ilə rövnəqlənən qardaşlıq

## Azərbaycan 41-ci İstanbul Beynəlxalq Kitab Sərgisinin “fəxri qonağı” oldu




*əvvəli səh. 1-də*

Nazir müavini bildirib ki, bu gün Azərbaycan-Türkiyə münasibətləri tarixinin qızıl dövrünü yaşayır. Bunun da əsasında, ilk növbədə, dövlət başçılarımız – Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın şəxsi dostluğu dayanır. Dövlətlərimizin müttəfiqlik münasibətləri mədəni əlaqələrin də inkişafına münbit şərait yaradır. Ölkələrimiz həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir.

Fərid Cəfərov çıxışının sonunda sərginin təşkilində zəhməti olanlara və Azərbaycan nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirib, sərginin işinə uğurlar arzulayıb.

İstanbul Böyükşəhər Bələdiyyəsinin başqanı Ekrem İmamoğlu, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Kitabxanalar və Nəşriyyatlar Baş İdarəsinin rəhbəri Taner Beyoğlu, Türkiyə Yayınçılar Birliyinin sədri Kenan Kocatürk, İstanbul valisi Davud Gül, sərginin “fəxri yazarı” Yalvaç Ural və başqaları çıxış edərək sərginin əhəmiyyətini vurğulayıblar. Çıxışlarda Türkiyədə kitab sənayesinin mövcud vəziyyəti və qarşıda duran vəzifələrdən də söz açılıb.





İstanbul valisi Davud Gül Azərbaycan nümayəndə heyətinin rəhbəri nazir müavini Fərid Cəfərova valiliyin hədiyyə plaketini təqdim edib.

Sərginin rəmzi açılışını bildirən lent kəsilib.

Tədbir iştirakçıları sonra sərgi məkanında Azərbaycan stendinin açılışında iştirak ediblər.

Sənətçilərimizin iştirakı ilə bədii proqram təqdim olunub. Yeniyetmə xanəndə Həzrət Əzizlinin ifasında “Bayatı-Şiraz” muğamı səsləndirilib. Bu il 530 illiyi qeyd olunan dahi Azərbaycan şairi Məhəmməd Füzulinin “Leyli və Məcnun” əsəri əsasında Üzeyir Hacıbəylinin yazdığı eyniadlı operadan rəqs kompozisiyası təqdim olunub.

Əməkdar artist Nuriyyə Hüseynova “Yaşa, Azərbaycan!” mahnısını ifa edib. Xanəndəni Xalq artisti Elçin Həşimov (tar), Əməkdar artist Elnur Əhmədov (kamança) və Siyavuş Kərimov (nağara) müşayiət ediblər.

Daha sonra Azərbaycan stendi ilə tanışlıq olub. Məlumat verilib ki, stenddə ölkəmizdən 20-dən çox nəşriyyatın kitabları, ümumilikdə 2 min nüsxədən çox çap məhsulu yer alıb.

Azərbaycan stendində Türk Mədəniyyəti və İrsi Fondunun nəşrlərinə də ayrıca guşə ayrılıb.

Qeyd edək ki, 41-ci İstanbul sərgisinin “fəxri qonaq ölkəsi” kimi Azərbaycanın stendində 2–4 noyabr tarixlərində 20-dək müxtəlif səpkili tədbir təşkil edilib.

**Fariz Yunisli**
**İstanbul**

# Nizami irsi, aşıq şeiri, nağıllar...

## İstanbul sərgisində kitablarımızın təqdimatları







TÜYAP kompleksində keçirilən 41-ci İstanbul Beynəlxalq Kitab Sərgisi Azərbaycan ədəbiyyatı ilə bağlı yeni nəşrlərin təqdimatları ilə də yadda qalıb.

Görkəmli rus şərqşünas-alimi Yevgeni Bertelsin türk dilinə tərcümə olunmuş “Böyük Azərbaycan şairi Nizami” kitabı Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi əsasında tərcümə edilərək işıq üzü görüb.

AMM-in direktoru Samir Abbasov layihə haqqında danışıb, Nizami Gəncəvinin həyat və yaradıcılığı haqqında olan kitabın türkcə nəşrinin əhəmiyyətini diqqətə çatdırıb. Bildirib ki, tədqiqat əsərini “Türk ədəbiyyatı” dərgisinin baş redaktoru, ədəbiyyatımızın dostu İmdat Avşar çevirib.

Şair, tədqiqatçı Fərid Hüseyn, tərcüməçi İmdat Avşar və başqaları çıxış edərək kitabı nizamişünaslığa mühüm töhfə kimi qiymətləndiriblər.

***

Noyabrın 4-də sərgi məkanında bu il 100 illiyi qeyd olunan Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Mikayıl Azaflının (1924–1990) şeirlərindən ibarət kitabın təqdimatı keçirilib.

Təqdimat mərasimi TÜRKSOY, Azərbaycan Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə gerçəkləşib.

Tədbirin moderatoru Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı nəşrin ərsəyə gəlməsindən danışıb. Qeyd edib ki, “Aşıq Mikayıl Azaflı. Seçilmiş şeirlər” adlı kitab görkəmli saz-söz ustadının 100 illiyinə həsr olunub.

***




Həmin gün Türkiyədəki AMM-in layihəsi ilə bu yaxınlarda türkcə çap olunmuş daha bir kitabın – “Azərbaycan xalq nağılları”nın da təqdimatı keçirilib.

Bildirilib ki, kitabın tərtibçisi Türkiyədə yaşayan azərbaycanlı alim, kulturoloq Mətanət Hüseynova, nağıllar üzrə illüstrasiyaların müəllifi tanınmış uşaq rəssamı Nüşabə Kiçikdir.

Kitabda “Tıq-tıq xanım”, “Cırtdan”, “Şəngülüm, Şüngülüm, Məngülümün nağılı”, “Keçəl”, “Göyçək Fatma”, “Ovçu Pirimin nağılı”, “Sehrli xalça”, “Təpəgözün nağılı”, “Məlikməmməd”, “Tülkü, tülkü, tünbəki” – ümumilikdə 12 nağıl yer alıb.

Tədbirdə İstanbulda Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun adını daşıyan orta məktəbin bir qrup şagirdi də iştirak edib. Onlar uşaq yazıçılarına suallar ünvanlayıb, şeirlər söyləyiblər.

# İstanbulda Azərbaycan yazarlarının iştirakı ilə panel və imza mərasimləri

41-ci İstanbul Beynəlxalq Kitab Sərgisinin “fəxri qonaq ölkə”si olan Azərbaycan yazarlarının iştirakı ilə sərgi məkanında və milli stendində imza mərasimləri, ədəbi müzakirələr təşkil olunub.

Noyabrın 2-də “Sosial media çağında yazmaq” mövzusuna həsr olunan ilk panel esseist, ədəbiyyatşünas Qismət Rüstəmovun moderatorluğu ilə keçirilib. Müzakirədə yazarlar Sahilə Yaya, Ulucay Akif və Rəvan Cavid iştirak ediblər.

Qeyd olunub ki, çağdaş dünyada texnoloji yeniliklər insanın fəaliyyət və davranışlarına sanki bir sürət və tələsgənlik gətirib. Buna görə də yazıçıların maraqlı mövzular seçməsi və diqqətçəkən üslub nümayiş etdirməsi zəruridir.

Yazarlar onlara ünvanlanan sualları cavablandırıblar, səsləndirilən fikirlərlə bağlı müzakirə aparılıb.

***

Həmin gün Azərbaycan stendində yazıçılar Günel Şamilqızının “Div olanda nə olar?” (povest və hekayələr) və Cavid Zeynallının “Coğrafiya müəlliminin pencəyi” (hekayələr) kitablarının imza mərasimi olub.

Şair Fərid Hüseyn hər iki yazar və kitabları haqqında məlumat verib. Bildirilib ki, hər iki nəşr Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə 2016-cı ildən həyata keçirilən “Azərbaycan kitabının dünyaya tanıdılması” layihəsi çərçivəsində “Azərbaycan ədəbiyyatı gənclik seriyası” üzrə 2020-ci ildə Türkiyədə “Zengin yayıncılık” nəşriyyatında çap olunub. Kitabları tanınmış şair-tərcüməçi Yurtseven Şen türkcəyə uyğunlaşdırıb.

Sonra müəlliflər kitabları oxucular üçün imzalayıblar.

***

Daha bir panel müzakirəsi uşaq ədəbiyyatına həsr edilib.










Yazıçı Sahilə Yayanın aparıcılığı ilə reallaşan panelin qonaqları tanınmış uşaq yazarları Solmaz Amanova və Sevinc Nuruqızı olub.

Onlar uşaq ədəbiyyatının əhəmiyyətini vurğulayıb, bu qəbildən əsərlərin uşaqların estetik zövqünün, dünyagörüşünün zənginləşməsində müstəsna rol oynadığını bildiriblər. Qeyd olunub ki, uşaqlar nə qədər bədii ədəbiyyata maraq göstərsələr, zərərli vərdişlərdən və informasiyalardan uzaq olarlar.

Müzakirə şəklində davam edən tədbirdə müəlliflər sualları cavablandırıblar.

***

“Yeni Azərbaycan hekayəçiliyi və romançılığı” mövzusunda panel müzakirəsində yazarlar Aqşin Yenisey, Nərmin Kamal, Cavid Zeynallı və Ülvi Babasoy çıxış ediblər.

Paneldə Azərbaycan nəsrində gedən proseslər və ədəbiyyatımızda realizm ənənəsi ilə bağlı müzakirə aparılıb. Yeni Azərbaycan nəsrində Qarabağ mövzusu və yazıçı-oxucu münasibətləri də diqqət mərkəzinə çəkilib.

***

Stendimizdə növbəti panel “Azərbaycanda nəşriyyat mədəniyyəti” mövzusuna həsr olunub. Naşirlər Şəmil Sadiq, Nurman Tariq, Rafiq İsmayılov və başqaları ölkəmizdə kitab sənayesinin hazırkı vəziyyəti, bu sahənin inkişafı ilə bağlı qarşıda duran vəzifələrdən danışıblar.

***

Bundan əlavə, stendimizdə yazıçı Rəvan Cavidin türk dilində işıq üzü görən “Absurd menyu” və esseist, ədəbiyyatşünas Qismət Rüstəmovun “Gələcəyin tarixi” (türkcə) kitablarının imza mərasimləri keçirilib.

# Qarabağ Universitetində "Dəmir yumruq"

Şuşa Dövlət Musiqili Dram Teatrı Qarabağ Universitetində Zəfər Günü münasibətilə "Dəmir yumruq" adlı ədəbi-bədii kompozisiya nümayiş etdirib.



Teatrın "Zəfər həftəsi" çərçivəsində təqdim etdiyi səhnə işi 44 günlük Vətən müharibəsində qazanılmış Qələbənin dördüncü ildönümünə və şəhidlərimizin əziz xatirəsinə həsr olunub.

Kompozisiyada Xalq artisti Şükufə Musayeva, Əməkdar artistlər Teymur Məmmədov, Nazir Rüstəmov və digər tanınmış aktyorların ifasında Azərbaycan və Türkiyə şairlərinin vətənpərvərlik mövzulu şeirləri səslənib.

Səhnə işinin ssenari müəllifi teatrın direktoru Əməkdar artist Yadigar Muradov, quruluşçu rejissoru Əməkdar artist Loğman Kərimovdur.

# Qazax teatrının aktyoru Qazaxıstanda mükafat qazanıb

Xəbər verdiyimiz kimi, 28 oktyabr – 3 noyabr tarixlərində Qazaxıstanın paytaxtı Astanada keçirilən III Beynəlxalq "Theatre All" festivalında ölkəmizdən Qazax Dövlət Dram Teatrı da təmsil olunub.



Tanınmış qazax yazıçı-dramaturqu, rəqqas və caz artisti, Dövlət mükafatı laureatı Roza Mukanovanın yaradıcılığına həsr olunan festivalda Qazax teatrı müəllifin eyniadlı tragikomediyası əsasında hazırlanan "Çadır altında – mən" tamaşası ilə çıxış edib.

M.Qorki adına Qazaxıstan Dövlət Akademik Rus Dram Teatrında nümayiş etdirilən səhnə əsəri maraqla qarşılanıb. Tamaşaçılar arasında dramaturq Roza Mukanova və Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov da olub.

Tamaşa heyətindən Əməkdar artist Xəzər Gəncəli "ən yaxşı aktyor" nominasiyasında mükafata layiq görülüb.

Mükafatlandırma K.Kuanışbayev adına Qazax Milli Musiqili Dram Teatrında olub.

Xatırladaq ki, tamaşanın quruluşçu rejissoru Əməkdar artist Musa Eyyubov, quruluşçu rəssamı Aysan Omarova, musiqi tərtibatçısı Vahid Bayramovdur.

# Festivaldan qastrola: Gəncə kuklaçıları Almatıda və Lənkəranda çıxış ediblər

Gəncə Dövlət Kukla Teatrı 21–25 oktyabr tarixlərində keçirilən II Almatı Beynəlxalq Kukla Teatrları Festivalında çıxış edib. Mədəniyyət Nazirliyinin dəstəyi ilə səfərə gedən kollektiv Rəsul Rzanın "Ana qaz" şeirinin motivləri əsasında hazırlanmış eyniadlı pantomim tamaşanı göstərib.

Tamaşa festivalın xüsusi diplomuna layiq görülüb. Səhnə əsərinin quruluş müəllifi və musiqi tərtibatçısı Gəncə Dövlət Kukla Teatrının baş rejissoru Şamil Məmmədli, quruluşçu rəssamı Əməkdar artist Fərmail Paşayev, quruluşçu rəssamı Məhəmməd Hacıyevdir.



Almatıdan qayıdan Gəncə kuklaçıları Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə reallaşan qastrol proqramı çərçivəsində noyabrın 1-də Lənkərana gediblər. Burada teatrın repertuarından K.Çukovskinin "Milçək-vizilçək" kukla tamaşası nümayiş olunub.

Balaca tamaşaçıların marağına səbəb olan tamaşanın quruluşçu rejissoru Zülfiyyə Əliyeva, quruluşçu rəssamı Məhəmməd Hacıyevdir. Personajları Elmar Vəliyev, Nahidə Namazova, Zülfiyyə Əliyeva, Nərmin Şərifova və Yeganə Məmmədova canlandırıb.

# Ağdam teatrında "Gecikmiş məhəbbət"

Ağdam Dövlət Dram Teatrında yazıçı-dramaturq Çingiz Ələsgərlinin "Gecikmiş məhəbbət" əsərinin məşqləri başlanıb.



Teatrın baş rejissoru Kərim Həsənovun quruluş verdiyi tamaşanın rəssamı Qönçə Həzizadə, musiqi tərtibatçısı Azər Şükürov, rejissor assistenti Ceyhun Yusifovdur.

Ailə-məişət mövzulu səhnə əsərində Əməkdar artist Aidə Qasımova, aktyorlar Elmir Hümbətov, Nuranə Əliyeva, Xəyalə Xudadatova, Zərifə Ağayeva, Ülviyyə Qasımova, Elman Məhərov, Qalib Abdullazadə, Anar Əhmədov, Rüstəm Məmmədov rol alıblar.

Tamaşa dekabr ayında teatrsevərlərə təqdim olunacaq.

Bundan başqa, yaradıcı heyət yeni ilin ilk həftəsində Sahib İbrahimlinin "Cənnət və cəhənnəm" tamaşası ilə Bakıya gələcək. Tamaşa yanvarın 7-də Akademik Milli Dram Teatrında Mədəniyyət Nazirliyinin dəstəyi ilə həyata keçirilən "Bölgə teatrlarının Bakı premyeraları" layihəsi çərçivəsində göstəriləcək.

# "Sənə Zəfər yaraşır, Azərbaycan!"

## Bölgələrdə 8 Noyabr – Zəfər Günü münasibətilə tədbirlər

Quba-Xaçmaz Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı ilə Başir Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzinin akt zalında "Zəfər soraqlı nəğmələr" adlı tədbir keçirilib. Quba rayon MKS-nin Mərkəzi Kitabxanası tərəfindən "Xalqımızın Zəfər tarixi" adlı sərgi nümayiş olunub.

***

Qəbələ rayon Mədəniyyət Mərkəzində "Sənə Zəfər yaraşır, Azərbaycan!" adlı bədii qiraət və rəsm müsabiqəsi təşkil edilib. Uşaqların vətənpərvərlik mövzusunda çıxışları və rəsm işləri maraqla qarşılanıb. Qaliblər rayon mərkəzinin diplom və fəxri fərmanı ilə təltif olunub.





Muzeyin bərpaçı-rəssamı Heyran Xancanovanın qədim toy adət-ənənələri, təbiət mənzərələri və işğaldan azad edilmiş torpaqlardakı memarlıq abidələrinin əks olunduğu əl işləri nümayiş olunub.






***

Zəfər Günü ərəfəsində Hacıqabul rayon Heydər Əliyev Mərkəzi və rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Mənim dünyam" adlı sərgi keçirilib.

***

Tovuz şəhər Mahir Ələkbərov adına liseyin və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Zəfər tariximiz" adlı rəsm sərgisi keçirilib. Tədbirə qatılan şagirdlər vətənpərvərlik mövzusunda şeirlər söyləyib, rəsm sərgisinə baxıblar.

***

Astara rayon Mərkəzi Kitabxanasında "8 Noyabr – Zəfər tariximiz" mövzusunda tədbir təşkil edilib. Çıxışlarda milli qürurumuzun təntənəsinə çevrilən şanlı tarixdən bəhs edilib. Şagirdlərin ifasında Zəfər Günü ilə bağlı şeirlər səsləndirilib.

***

Ağstafada "Zəfər bağı: Vətən üçün yeni nəfəs" adlı ağacəkmə aksiyası həyata keçirilib. Heydər Əliyev Mərkəzinin yaşıllıq üçün nəzərdə tutulan sahəsində şəhidlərimizin əziz xatirəsinə xatirə lövhəsi qoyulub, 100 şam ağacı əkilib. Aksiyada rayonun icra başçısı Seymur Orucov da iştirak edib.

***

Ağdaş rayon Mədəniyyət Mərkəzinin tabeliyində olan klub müəssisələrinin əməkdaşları arasında "Zəfərin səsi" adlı bilik yarışı keçirilib. Heydər Əliyev Mərkəzində gerçəkləşən ilk turda 7 komanda iştirak edib. 3 komanda final mərhələsində iştirak etmək haqqı qazanıb.

# Şuşada "44 gün – tarixi Zəfər" kitabının növbəti cildinin təqdimatı

Mədəniyyət Nazirliyinin Respublika Xatirə Kitabı Redaksiyası Şuşa şəhəri 1 nömrəli tam orta məktəbdə "44 gün – tarixi Zəfər" adlı kitabın III cildinin təqdimatını keçirib.



Xatirə Kitabı Redaksiyasının baş redaktoru Nəzakət Məmmədova kitab haqqında məlumat verib. Qeyd edilib ki, kitabın cildlərində 44 günlük Vətən müharibəsi ilə yanaşı, 2016-cı ilin Aprel döyüşləri və Tovuz hadisələri zamanı həlak olanların da adları əbədiləşdirilib, onlar haqqında ensiklopedik məlumatlar yer alıb.

Diqqətə çatdırılıb ki, "Respublika Xatirə Kitabı"nın indiyədək 20-yə yaxın cildi çap olunub. Kitablarda İkinci Dünya müharibəsində, Əfqanıstan döyüşlərində, 20 Yanvar faciəsində, Xocalı soyqırımında, Qarabağ müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə həlak olmuş, itkin düşmüş, əsir götürülmüş vətəndaşlarımız, Milli Qəhrəmanlar haqqında materiallar dərc edilib.

Redaksiyanın "Vətən daşı… və ya 44 günün dastanı" adlı layihəsi əsasında 8 sənədli film də çəkillib. Bu filmlərin dördü geniş ictimaiyyətə təqdim olunub.

# Salyanda şair Oqtay Rzanın 90 illiyi qeyd olunub

Salyan rayon Mərkəzi Kitabxanası və rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə Əməkdar müəllim, tanınmış şair Oqtay Rzanın (1934–2019) 90 illik yubileyi münasibətilə tədbir keçirilib.

Çıxışlarda şairin həyat və yaradıcılığı haqqında məlumat verilib. Qeyd olunub ki, Oqtay Rza 70 il ədəbi yaradıcılıqla məşğul olub, 20-dən çox kitabı çap edilib və əsərləri xarici dillərə tərcümə olunub. Şairin əsas qayəsi Vətənə məhəbbətin, mənəvi-əxlaqi zənginliklərin təbiət gözəllikləri ilə vəhdətdə tərənnümündən ibarət olan yaradıcılığı bu gün də gənc nəslin tərbiyəsində əhəmiyyət kəsb edir.

Kitabxananın bədii qiraətçiləri şeirlər söyləyib, rayon Mədəniyyət Mərkəzinin solistləri şairin sözlərinə bəstələnən mahnılar ifa ediblər.

Sonda Oqtay Rzanın bacısı Səfurə Rzayeva ailə üzvləri adından çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılara minnətdarlığını bildirib.

# Yerlərdən müxtəlif səpkili xəbərlər






Sumqayıt Gənclər Kitabxanası şəhər 1 nömrəli tam orta məktəbdə "Yaşıl dünya naminə həmrəylik ili" və "COP29" ilə əlaqədar olaraq "Qlobal problemlər – qlobal istiləşmə" adlı diskussiya keçirib. Qeyd olunub ki, iqlim dəyişiklikləri bütün dünyanı narahat edən problemdir. Bu günlərdə Bakıda işə başlayacaq COP29 iqlim sammiti də bu istiqamətdə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədi daşıyır.

***

Bərdə rayon Mədəniyyət Mərkəzində "Korrupsiyaya qarşı birgə mübarizə aparaq" adlı tədbir təşkil edilib. Mövzu üzrə videoçarx nümayiş etdirilib. Çıxışlarda korrupsiyanın cəmiyyətin hər sahəsində inkişafı zəiflətdiyi, idarəçiliyin səmərəliliyinə zərbə vurduğu, digər mənfi təzahürlərə yol açdığı vurğulanıb, bununla bağlı mübarizə tədbirlərinin görüldüyü, rüşvətxorluğa şərait yaradan halların qarşısının alınması məqsədilə islahatlar aparıldığı diqqətə çatdırılıb.

***

Ağcabədi rayon Hacıbədəlli kənd Uşaq musiqi məktəbində "Uşaqlar bizim gələcəyimizdir" adlı tədbir keçirilib. Çıxışlarda uşaq hüquqları və ölkəmizdə uşaq hüquqlarının qorunması istiqamətində atılan addımlardan danışılıb. Məktəbin şagirdləri tərəfindən hazırlanmış konsert proqramı təqdim edilib.

***

Salyan rayon Heydər Əliyev Mərkəzi, rayon İcra Hakimiyyəti və digər qurumların birgə təşkilatçılığı ilə "Azərbaycanda ekoloji siyasətin formalaşmasında Heydər Əliyevin rolu" adlı tədbir keçirilib. Ulu öndərin fəaliyyəti dövründə ölkədəki ekoloji vəziyyətin həmişə xüsusi diqqət mərkəzində saxlanıldığı, ətraf mühitin mühafizəsi ilə bağlı müəyyən olunmuş prioritetlər üzrə tədbirlərin həyata keçirildiyi diqqətə çatdırılıb.

***

Lənkəran Mərkəzi Kitabxanası və AYB Lənkəran bölməsinin birgə təşkilatçılığı ilə yazıçı-publisist Hafiz Mirzənin yenicə nəşr olunmuş "Sonuncu güllə" kitabının təqdimatı keçirilib. Çıxış edənlər yazıçının yaradıcılığından, Vətən müharibəsində əsgərlərimizin qəhrəmanlığından bəhs edən bu kitabın məziyyətlərindən söz açıblar.

Şagirdlər vətənpərvərlik mövzusunda olan şeirlər söyləyiblər, eləcə də bu mövzuda musiqi nömrələri səslənib.

***

Nizami Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzinin şəbəkəsinə daxil olan mədəniyyət müəssisələrinin əməkdaşları "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Yaşıllıq həyatdır" devizi altında ağacəkmə aksiyasında iştirak ediblər. Mərkəzin ərazisində təmizlik işləri aparılıb və gül kolları əkilib.

Masallı rayon Mərkəzi Kitabxanası isə Heydər Əliyev Mərkəzində "Uşaqları zərərli informasiyalardan necə qoruyaq?" adlı tədbir keçirib. Qeyd olunub ki, informasiya bolluğunun yaşandığı müasir zamanda uşaqların sosial şəbəkələrdə zərərli informasiyadan qorunması millətin sağlam gələcəyi baxımından zəruridir.

***

Qobustan rayon Mədəniyyət Mərkəzində azyaşlılar üçün "Qoğal" kukla tamaşası nümayiş olunub. Azyaşlılar tərəfindən böyük maraqla qarşılanan tamaşanın quruluşçu rejissoru Gülər Məlik, quruluşçu rəssamı isə Xanım Azərqızıdır.

**Hazırladı: N.Məmmədli**

# Gəncə Dövlət Filarmoniyasının layihələri

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının "Xalqın mədəni sərvəti" layihəsi bu dəfə Azərbaycan professional vokal sənətinin banisi, SSRİ Xalq artisti Bülbülə həsr olunub.



Layihənin ilk günü filarmoniyada Bülbülün xatirəsinə həsr olunmuş konsert proqramı keçirilib. Xalq artisti Sevinc İbrahimova, Əməkdar artistlər Kəmalə Tağızadə, Tural Abdullayev, Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova, solist Vasif Bayramov Üzeyir Hacıbəylinin "Sevgili canan", "Sənsiz", Asəf Zeynallının "Ölkəm", Fikrət Əmirovun "Ulduz", "Gülüm" romanslarını, Müslüm Maqomayevin "Şah İsmayıl" operasından Aslan şahın ariyasını, Səid Rüstəmovun "İntizar", Vasif Adıgözəlovun "Qərənfil" əsərlərini ifa ediblər.

***

Gəncə Dövlət Filarmoniyasında dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş "Füzuli musiqidə" adlı konsert proqramı təşkil edilib.

Konsertdə Xalq artisti Sevinc İbrahimova, Əməkdar artistlər Kəmalə Tağızadə, Tural Abdullayev, Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova, solist Vasif Bayramov "Könlümü dərdə salan", "Qəlbi pərişan eləmə", "Vəslin mənə", "Dil giriftar olub", "Əfsanəsi budur", "Ey Dilruba", "Ağlaram", "Xəndandır bu" qəzəllərinə bəstələnmiş əsərləri ifa ediblər.

# “Şap elə bilir şupdadır, şup elə bilir...”

Amma o, həmişə ya məşqdədir, ya tamaşada, ya çəkilişdə, ya da dərsdə. Bəli-bəli. Özü belə dedi. Üstəlik, onu da ələvə elədi ki, “Sənət adamının canında nə qədər sağlamlıq varsa, o, səhnəyə çıxmalıdır...”.





Oktyabrın 30-da Heydər Əliyev Sarayında tanınmış aktyor, Xalq artisti, professor, “Şöhrət” ordenli İlham Namiq Kamalın 75 illiyinə həsr olunmuş təntənəli gecə keçirildi. Buna yubiley mərasiminə bir-biri üçün darıxanların görüş gecəsi də demək olardı. Sənətkarla onu sevənlər üz-üzə dayanmışdılar. Sevgi, alqış, bol gülüş... Hər iki tərəf məmnun idi...

Gecədə yubilyarın həyat və yaradıcılığından, aktyorluq və pedaqoji fəaliyyətindən ətraflı söz açıldı. Özü də özünün aparıcı-ifaçı, əsl ev sahibi qonaqpərvərliyi ilə.

Xalq artistinin iştirak etdiyi tamaşalardan, filmlərdən parçalar da göstərildi. Səhnədə qurulan böyük monitorda nümayiş olunan obrazlar qalereyasından seçmələrin, foto və videokadrların müşayiətində özü də zalı saf, düşündürücü gülüşə qərq etdi. Yaşına inad çevikliklə onu təbrikə gələnlərə qoşulub o ki var oynadı, oxudu, danışdı.

Təbrikə gələnlər demişkən, Xalq artistləri Azər Zeynalov, Mübariz Tağıyev, Əməkdar artistlər Gülüstan Əliyeva, Sənubər İsgəndərli, Nərgiz Kərimova, Ramil Qasımov, müğənni Nərmin Kərimbəyova və başqaları müxtəlif obrazlara bürünərək sənətkarla eyni səhnəni bölüşüb, musiqili təbriklərini çatdırdılar.

Aktyorun zaman-zaman çalışdığı Akademik Opera və Balet, Akademik Milli Dram teatrlarından təbriklər, eləcə də sənət dostu və qardaşı Xalq artisti Cəfər Namiq Kamalla məşhur duet-səhnəciyi həmişəki kimi coşqu ilə qarşılandı.

Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) sədri Xalq artisti Hacı İsmayılov 60 illik sənət yoldaşını təbrik etdi, onun müxtəlif teatrların səhnəsində, televiziya tamaşalarında yaratdığı biri-birindən maraqlı rollarla tamaşaçı məhəbbəti qazandığını vurğuladı. Yubilyara ATXİ-nin “Teatr xadimi” medalını təqdim etdi.

İlham Namiq Kamalın çalışdığı Akademik Musiqili Teatrın təbrik çələngində musiqili komediyalardan parçalar vardı: əvvəl tələbəsi, indi isə tərəf-müqabili olmuş həmkarları onunla bir səhnəni bölüşdülər.

Səhnədə onun üçün ayrılan xudmanı guşədə qərar tutmayan, tez-tez zala – tamaşaçıların yanına düşən yubilyara baxdıqca onun illər əvvəl bir müsahibəsində dediyi “Mən Allahın qismətinə inanan adamam. Qismətdən artıq yemək olmaz. Qismətindən artıq yemək istəyənlərə də əhəmiyyət vermirəm. Bəzən görürsən ki, həyatda hər şeyi əldə etmiş biri sağlamlığı və həyatı hesabına daha nələri isə əldə etməyə can atır. Belə sənət adamlarını anlaya bilmirəm. Axı heç kim bu dünyada əbədi deyil, bu dünyadan heç nə apara bilməyəcək. Mən heç vaxt, heç nəyə can atmamışam. Sadəcə olaraq, başımı aşağı salıb, sənətimlə məşğul olmuşam. Səhnədə və ekranda mənə tapşırılan obrazı ürəklə, peşəkarlıqla canlandırmağa çalışmışam. Xalqın sevgisi, ad-san və şöhrət özü gəlib məni tapıb. Buna görə mən həmişə sənətimə yüksək dəyər verən xalqıma və dövlətimə minnətdaram” fikirləri düşdü.

Məncə, yubiley gecəsi bu anlamda həm də onun benefisi sayıla bilər. Düzdür, səhnədə və səhnədə qurulmuş böyük ekranda onunla zaman-zaman tərəf-müqabili olmuş aktyorlar, az qala əzbər bildiyimiz teletamaşa və filmlərdən ani kadrlar, eləcə də dolğun yubiley proqramı tərtib olunmuşdu. Amma bütün bu qələbəliyin içində bir də o, təkliyə çəkilmiş və tamaşaçıları ilə ürək söhbəti edirdi. Yaradıcılıq yolundan məmnun azadəliklə.

Yubileyi münasibətilə qəzetimizə verdiyi müsahibəsində zarafatla “Mən niyə obrazların həsrətini çəkməliyəm, qoy rollar mənim həsrətimi çəksinlər” deyən və ömrü boyu sənətə əxlaqla xidmət prinsipini rəhbər tutan aktyorun uğur formulu, necə deyərlər, seçilməsinin bir sirri həm də bundadır.

Gecənin sonunda final monoloqunu söyləyib, ardınca “Mən aktyoram” mahnısını ifa etməsi isə bir anlamda İlham Namiq Kamalın onu sevən və səhnədə görmək istəyən tamaşaçılarla növbəti görüşə – 80-də hesabata qədər sağollaşması idi...

**Həmidə**

# Musiqisi Cahangir Cahangirovundur...

Oktyabrın 29-da Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında unudulmaz bəstəkar Cahangir Cahangirovun (1921–1992) anadan olmasının 103-cü ildönümünə həsr olunmuş konsert proqramı təqdim olunub. Teatrın instrumental ansamblının (bədii rəhbər Mirxalid Salayev) müşayiəti ilə solistlər bəstəkarın unudulmaz mahnılarını ifa ediblər.



Musiqi axşamında əvvəlcə bəstəkarın həyat və yaradıcılığından söz açılıb. Bildirilib ki, bu il dahi şair Füzulinin 530 illiyi qeyd edilir və bəstəkarın “Füzuli” kantatası Cahangir Cahangirova böyük şöhrət gətirib.

Proqramda Xalq artistləri Gülyanaq Məmmədova “Alagöz”, Gülyaz Məmmədova “Bakı”, Heydər Anatollu “Yenilməz batalyon” filmindən mahnı, Aynur İsgəndərli “Gecələr”, Rövşən Qəhrəmanov “Ay qız”, eləcə də Fəxri Kazım Nicat və Ayşən Mehdiyeva bəstəkarın dillər əzbəri digər mahnılarını oxuyublar. Ansamblın ifasında bəstəkarın instrumental əsərləri də səslənib.

Konsertin sonunda Xalq artisti Ağacəbrayıl Abasəliyev çıxış edərək ansambl üzvləri və ifaçılara təşəkkür edib.

Cahangir Cahangirovun qızı Səidə Məhərrəmova atasının xatirəsinə göstərilən ehtirama görə teatrın kollektivinə təşəkkürünü bildirib.

Qeyd edək ki, müxtəlif janrlarda musiqi əsərləri yazan Cahangir Cahangirov 1949-cu ildə Azərbaycan Radiosunun nəzdində yaradılan xora rəhbərlik edib, 15 ildən artıq bu kollektivlə işləyib. Mahnılarının çoxu ilk dəfə həmin kollektivin ifasında səslənib. O, həmçinin Azərbaycan Dövlət Filarmoniyası nəzdindəki Mahnı və Rəqs Ansamblının bədii rəhbəri vəzifəsində çalışıb.

**L.Azəri**

# Bakı Xoreoqrafiya Akademiyasında ustad dərsləri



Çelyabinsk Dövlət Mədəniyyət İnstitutunun (Rusiya Federasiyası) əməkdaşı, təcrübəli rəqs ustası Eldar Cəfərov Bakı Xoreoqrafiya Akademiyasında (BXA) ustad dərsləri keçib.

Dərslərdə BXA-nın tələbələrinə rəqslərdə cütlük və ya qrup şəklində ardıcıl icra olunan interaktiv hərəkətlər izah olunub, eyni zamanda müasir rəqslərdə tətbiq olunan yeniliklər barədə məlumat verilib.

Qeyd edək ki, ustad dərsləri BXA və Çelyabinsk Dövlət Mədəniyyət İnstitutu arasında bu yaxınlarda bağlanmış memorandum əsasında təşkil edilib.

***



BXA-da daha bir ustad dərsi hind klassik rəqsi ilə bağlı olub. Dərsi qazaxıstanlı xoreoqraf Akmaral Kaynazarova keçib.

Öncə A.Kaynazarova ilə BXA rəhbərliyi arasında görüş keçirilib. Qonağa akademiyanın təhsil pillələri, dərs prosesi, spesifik dərslərdə tətbiq olunan yeniliklər, eləcə də BXA-nın beynəlxalq əlaqələri barədə məlumat verilib. Qazaxıstanlı xoreoqraf fəaliyyəti, keçdiyi ustad dərsləri haqqında danışıb.

Ustad dərsində BXA-nın müəllimləri, tam orta təhsil pilləsinin şagirdləri və orta ixtisas təhsili pilləsinin tələbələri iştirak ediblər.

A.Kaynazarova şagird və tələbələrə hind rəqslərində bədən hərəkətlərinin dinamikliyi, dramatikliyi və s. barədə məlumat verib. Xoreoqraf hind klassik rəqslərində boyun, göz, baş, gövdə və digər hərəkətləri əyani olaraq göstərib və tələbələrlə birgə ifa edib.

# Azərbaycanlı rejissor “Listapad” festivalının jürisində

Rejissor, prodüser, ssenarist Cavid İmamverdiyev 1–8 noyabr tarixlərində keçirilən 30-cu Minsk Beynəlxalq “Listapad” Kinofestivalının münsiflər heyətində yer alıb.

Bu il “Keyfiyyət nişanlı kino” devizi altında keçirilən festival Belarus kinosunun 100 illiyinə həsr olunub.

Cavid İmamverdiyev festivalda “Gənclərin kinosu” müsabiqəsinin jürisinə başçılıq edir. Onunla birlikdə filmləri İsveçrədən rejissor və sənədli film prodüseri Domeniko Lukkini və belaruslu rejissor Kirill Xaletski qiymətləndirir. Beynəlxalq festivalın bu bölümündə 11 film var.

Əsas bədii film müsabiqəsində isə 18 film təqdim edəcək. Onların arasında 2024-cü ildə Kann Film Festivalında Qran-priyə layiq görülmüş Hindistan rejissoru Payala Kapadianın “Bizə işıqlı görünən hər şey” dramı var.

Festivalın proqramına həmçinin sənədli filmlər, animasiya filmlərin nümayişi və gənc tamaşaçılar üçün “Listapadzik” müsabiqəsi də daxildir.

# “Az səslənən muğamları yaşatmalı və təbliğ etməliyik”

## “Ustad dərsi”ndə “Dügah” və “Bayatı-Qacar” dəsgahları təqdim olunub



Beynəlxalq Muğam Mərkəzinin (BMM) “Ustad dərsi” layihəsinin növbəti tədbiri “Dügah” və “Bayatı-Qacar” dəsgahlarına həsr olunub. Noyabrın 1-də “Dügah” və “Bayatı-Qacar” dəsgahları instrumental ifada və xanəndələrin ifasında tamaşaçılara təqdim olunub.

BMM-in direktoru Əməkdar artist Sahib Paşazadə çıxış edərək bildirib ki, Azərbaycan muğamı deyiləndə ilk olaraq “Rast”, “Şur”, “Segah” kimi muğamlarımız yada düşür. “Dügah” və “Bayatı-Qacar” muğamları nadir hallarda səslənir. “Nəva” muğamı da az səslənən muğamlardan biri olsa da, tədris proqramına (tar ifaçılığında) salınıb. “Bayatı-Qacar” və “Dügah” muğamları vaxtilə sovet dönəmində də müəyyən təzyiqlərə məruz qalaraq oxunmayıb: “Biz az səslənən muğamları yaşatmalı və təbliğ etməliyik. BMM unudulan muğamlara müraciət edərək silsilə şəkildə onları ictimaiyyətə təqdim edəcək. Muğam biliciləri, peşəkar musiqiçilərlə birlikdə bu muğamları öz koloriti və xüsusiyyəti ilə dinləyicilərə çatdırmağa çalışacağıq”.

Sonra konsert proqramı təqdim olundu. Görkəmli tarzən Elxan Müzəffərov “Dügah” muğamını hissə-hissə ifa edərək mizrab vurğu və bölgüləri, ifada sürət-pauza və s. mövzularda düşüncələrini bölüşüb, muğamın 17 şöbə və guşəsinin olduğunu bildirib.

Konsertin ikinci hissəsində “Bayatı-Qacar” muğamını “Muğam” televiziya müsabiqəsinin qalibləri xanəndələr Nisbət Sədrayeva və Vüqar Əbilov təqdim ediblər. Onları Rövşən Qurbanov (tar), Ceyhun Muradov (kamança), Əməkdar artist Təranə Əliyeva (qanun), Amil Mustafayev (nağara), Rafael Əsgərov (balaban) və Vasif Yusifli (ud) müşayiət edib.

Qeyd edək ki, layihənin məqsədi klassik ifaçılıq məktəbimizin yaşadılmasına və gələcək nəsillərə ötürülməsinə, ustad-şagird ənənələrinin qorunmasına dəstək olmaqdır.

**Lalə**

“Uğur sorağında”

# “Texniki fənlərə marağım olsa da, musiqi üstün gəldi”

“Lap kiçik yaşlarımdan valideynlərim musiqiyə olan marağımı sezmişdilər. Bakı Dövlət Universitetinin professoru olan babam həm də klassik musiqinin vurğunu idi. Məni dünya klassikləri ilə ilk dəfə o, tanış edib. İndi deyə bilərəm ki, bu sahəyə peşəkar şəkildə yönəlməyim üçün anam və babam çox düzgün seçim ediblər. Öncədən texniki fənlərə marağımı duyan atam məni öz sahəsinə istiqamətləndirmək istəyirdi, lakin musiqiyə üstünlük verərək qazandığım uğurları gördükcə o da böyük dəstəkçim oldu”.

Bu sözləri yaşına görə uğurları çox olan gənc pianoçu, respublika və beynəlxalq müsabiqələr laureatı Ərtoğrul Balayev deyir.

Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə ötən il keçirilən Uşaq İncəsənət Festivalının (UİF) mükafatçıları olmuş istedadlardan biri kimi o, “Uğur sorağında” rubrikamızın növbəti qonağıdır.

Ərtoğrul Balayev 2008-ci ildə Bakıda anadan olub. Tofiq İsmayılov adına 6 nömrəli məktəb-liseyin və Tofiq Quliyev adına 12 nömrəli onbirillik musiqi məktəbinin XI sinif şagirdidir.



Pianoçu kimi ilk böyük uğurunu Çexiyanın Praqa şəhərində keçirilən “Cyberart” beynəlxalq musiqi festivalında qazanıb. Bundan sonra 2021-ci ildə İspaniyanın Barselona şəhərində keçirilən “İspan günəşinin rəngləri” (“Paints of the Spanish sun”), Portuqaliyanın Lissabon şəhərində təşkil edilən “Portuqaliya incəsənət karnavalı” (“Portugal art carnival”) beynəlxalq festival-müsabiqələrində I diploma layiq görülüb. 2022-ci ildə respublikamızda Fikrət Əmirovun 100 illiyinə həsr olunmuş “Gənc istedadlar”ın ifaçılıq müsabiqəsində də I yeri qazanıb.

Ərtoğrul üçün ötən il ölkəmizdə keçirilən Uşaq İncəsənət Festivalı xüsusi bir məna daşıyır: “Bu festival Azərbaycan mədəniyyətinə öz töhfəsini verməyi arzulayan gənc istedadlar üçün əsl sınaq meydanı idi. Üstəlik, Ulu öndərin adı ilə bağlı bir festivalda çıxış etmək mənim üçün böyük şərəf idi. Nəticədə piano ifaçılığı üzrə 14-17 yaş kateqoriyasında I yeri qazandım. Bu festival mənim üçün yeni bir mərhələ oldu, musiqi yolunda qərarlılığımı və məqsədimi daha da möhkəmləndirdi”.

UİF-dən sonra da Ərtoğrulun uğurları davam edib. Ötən il “Akademik, xalq və caz musiqisi” II Respublika müsabiqəsində laureat olub. Bu il Türkiyənin Alanya şəhərində keçirilən XII “Harmoniya” beynəlxalq müsabiqə-festivalında II, Gürcüstanın Batumi şəhərində təşkil edilən VI “Dünya harmoniyası” (“World Harmony”) beynəlxalq festivalında isə I yerə layiq görülüb.

Müəllimi Yelena Vasilyevna şagirdi haqqında düşüncələrini bölüşür: “İlk dəfə dörd il əvvəl professional səhnə ilə tanış olan Ərtoğrul festival və müsabiqələrdə iştirak edib. Musiqi onun həyat devizinə çevrilib. Təbii ki, bu məni bir müəllim kimi çox sevindirir. Onun ən böyük arzusu orkestr dirijoru olmaq və öz musiqisini yaratmaqdır. Artıq belə cəhdlər olub. Ərtoğrulun böyük ədibimiz Cəfər Cabbarlının sözlərinə 13 yaşında yazdığı “Azərbaycan bayrağına” romansı ötən konsertlərimizin birində səslənib və maraqla qarşılanıb...”.

Tofiq Quliyev adına 12 nömrəli onbirillik musiqi məktəbinin direktoru Əməkdar müəllim Gülnarə Səfərova Ərtoğrulun özünü çalışqan və bacarıqlı şagird kimi göstərdiyini, məktəbin bütün tədbirlərində çıxış etdiyini bildirir: “O, dəfələrlə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin müşayiəti ilə çıxış edib. Öz üzərində çox çalışan bir şagirddir. Gələcəkdə biz Ərtoğrulu incəsənətimizin layiqli nümayəndəsi kimi tanınacağına ümid bəsləyirik”.

Gənc pianoçu dirijorluğa meyil göstərməsinin də maraqlı səbəbi var. Deyir ki, orkestrlə birgə çıxışlar etməsi onda dirijorluğa da maraq oyadıb: “Hər alətin özünəməxsus səsi, orkestrdə fərqli bir rolu var və dirijor kimi bu səslərin hamısını vahid bir ahəngə gətirmək məndə bu sahəyə böyük həvəs yaratdı. Məhz buna görə də ali təhsilimi pianoçu kimi yox, dirijorluq və bəstəkar üzrə almaq istəyirəm. Hazırda əsas məqsədim isə orta məktəbi və musiqi məktəbini uğurla başa vuraraq gələcək karyeram üçün ciddi təhsil almaqdır. Çox ümid edirəm ki, buna nail olacağam”.

**Nurəddin**

№82 (2147)
6 noyabr 2024
www.medeniyyet.az

"Vətən fədailəri"

## "Ana, oğlun sağdır və pianoda sənin sevdiyin musiqini ifa edir..."

Xalqımız onu Şuşanın düşməndən azad olunduğu zaman ifa etdiyi "İncə bellim" mahnısı ilə tanımışdı. Soyuqdan üşümüş əllərinin köhnə pianonun dilləri üzərində gəzişməsindən musiqi təhsili alması hiss olunurdu. Tale də elə gətirdi ki, onun həyatındakı musiqi melodiyalarının yerini qəhrəmanlıq notları aldı...



"Vətən fədailəri" rubrikasında bu dəfə şəhid polis Əzizbəy Muradovdan söz açacağıq.

Əzizbəy Etibar oğlu Muradov 1998-ci il fevralın 3-də Sabirabad rayonunun Ulacalı kəndində anadan olub. Orta təhsilini kənddəki məktəbdə alıb. Uşaqlıqdan qarmon çalmağa həvəs göstərib, Sabirabad şəhər Üzeyir Hacıbəyli adına Uşaq musiqi məktəbində sənətin sirlərini öyrənib. Sonra hərbi xidmətə yollanıb. Qayıtdıqdan sonra, 2018-ci ildə Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinə (qarmon ixtisası) qəbul olunub.

2020-ci ilin 27 sentyabrı. Vətən müharibəsi başlamışdı. Kollecin III kurs tələbəsi Əzizbəy təhsilini yarımçıq qoyaraq könüllü cəbhəyə yollanır. Artıq onun qulaqlarında musiqi səsi silah səsləri ilə əvəzlənmişdi. Savaş, qanlı döyüşlər... Döyüşçü yoldaşlarını itirir, amma bir yandan da özünü tapırdı. O, qarşılaşdığı çətinlikləri musiqi ilə yüngülləşdirməyə çalışırdı.

Vətən müharibəsi 44 sonra Azərbaycan Ordusunun şanlı Zəfəri ilə başa çatdı. Əzizbəy də müharibədəki şücaətinə görə "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.

Vətən müharibəsi zamanı sosial şəbəkələrdə yayılan ifaları ilə də məşhurlaşmışdı. İlk dəfə Qubadlıda qarmonda çaldığı "Qarabağ şikəstəsi" böyük maraq yaratmışdı. Şuşada pianoda ifa etdiyi "İncə bellim" mahnısı sosial mediada xüsusilə geniş yayılmışdı.

Əzizbəy müharibədən sonra müsahibələrindən birində bu haqda demişdi: "Qubadlı rayonunda qarmon tapdım. Onda əsgərlərdən birinin ad günü idi. Hər şey təsadüfən oldu. Uşaqlar xahiş etdilər ki, "Qarabağ şikəstəsi"ni ifa edim. Mən də ifa etdim. Deməli, xəbərim olmadan ifamı videoya çəkiblər. Sonra gəldik Şuşaya. Uşaqlar bir piano tapdılar. Onlar da bilirlər ki, mən musiqiçiyəm. Ona görə məni çağırdılar, dedilər, ifa elə...".

Vətən müharibəsindən qayıtdıqdan sonra Əzizbəy həyatının yönünü dəyişir. 2022-ci ildə Daxili İşlər Nazirliyinin (DİN) xüsusi təyinatlı Əlahiddə Çevik Polis Alayının sıralarına daxil olur. Qarşıda düşməni doğma yurdumuzdan tamamilə təmizləmək, uzun illərdir Qarabağda kök salmış erməni separatizminin kökünü birdəfəlik kəsmək missiyası vardı. O da 2023-cü ilin 19-20 sentyabrında Qarabağda həyata keçirilən lokal xarakterli antiterror əməliyyatında iştirak edir. Şuşa-Xankəndi istiqamətində tank əleyhinə minaya düşərək ağır yaralanır.

18 gün komada qalan Əzizbəy xəstəxanada göstərilən tibbi müdaxilələrə baxmayaraq, oktyabrın 6-da şəhadətə ucalır. Doğulub boya-başa çatdığı Sabirabad rayonunun Ulacalı kənd qəbiristanlığında torpağa tapşırılır. Ölümündən sonra "Vətən uğrunda" medalı ilə də təltif edilir.

Şəhidin anası Fatma Muradova oğlu haqqında fəxrlə danışır: "Hamı elə bilirdi ki, onun sevdiyi qız var, "İncə bellim" mahnısını da onu düşünərək ifa edir. Əzizbəy Vətən müharibəsi zamanı pianoda ifa etdiyi həmin mahnının videosunu mənə yollamışdı. Demişdi ki, ana, bax, oğlun sağdır və pianoda sənin sevdiyin musiqini ifa edir...".

Şəhidin atası Birinci Qarabağ müharibəsi veteranı Etibar Muradov deyir ki, Əzizbəy müharibədən qayıtdıqdan sonra çox sevdiyi not kitabçalarına toxunmurdu: "Əsgər geyimində çəkdirdiyi şəkillərinə qibtə edirdi. Ona torpaqlarımızın bütövlüyünün və suverenliyimizin tam bərpası yolunda Qələbə ilə taclanan tarix səhifəsi qismət oldu...".

Əzizbəy qəlbindəki Vətən sevgisi könül nəğməsini üstələyən qəhrəman kimi tarixə adını yazdırdı...

Allah rəhmət eləsin.

**Nurəddin**

# Vətən duyğulu romantik şair

XX əsr Azərbaycan ədəbiyyatında romantizmin ədəbi cərəyan kimi yaranması və inkişafında şair Məhəmməd Hadinin böyük rolu olub. O, istedadını başdan-başa xəlqilik və millilik ideyaların həsr edib, əsərlərində maarif və mədəniyyətin təbliğinə geniş yer ayırıb.

Araşdırmalarda da qeyd edilir ki, Azərbaycanda bu ədəbi cərəyan Hadinin poeziyası ilə təşəkkül tapıb. Onun 1906-cı ildə yazdığı "Nəğmeyi-əhrarənə" ("Hürriyyət nəğməsi") əsəri "azad romantizm"ə proloq hesab edilir. Dövrünün gerçək eybəcərlikləri ilə barışmayan şair istismarçı cəmiyyətə etiraz olaraq "Həqiqət acımı, dadlımı" şeirində yazır:

*Zülmün küləyi əsdi də soldurdu yanağın,*
*Eyvah ki, pamalü xəzan oldu da bağın.*
*Şahbaz kimi, söyləməm ülviyyətimiz yox,*
*Kiçik kəpənəkcə belə hürriyyətimiz yox.*

Məhəmməd Hadinin dolğun yaradıcılıq fəaliyyəti ölkədə maarifçilik ideyalarının özünü doğrultmadığı, ziyalılığın bir addım geri çəkildiyi bir dönəmə təsadüf edir. I Dünya müharibəsinin yaratdığı çətinliklər, insanlığa qarşı amansız qərarlar onun yaradıcılığına təsirsiz qalmır. Əsərlərində milli varlığın ümidsiz durumu geniş əksini tapır. Şairin romantik poeziyasında "Yox, millətimin imzası bu imzalar içində" kimi milli hiss bütün istəklərin fövqündə durur...

Məhəmməd Əbdülsəlim oğlu Hadi 1879-cu ildə Şamaxı şəhərində tacir ailəsində dünyaya göz açıb. İlk təhsilini məhəllə mədrəsəsində alıb. Doqquz yaşında atasını itirən Məhəmməd sonra anasından da ayrı düşür. Nənəsi Teyyibə xanım ona və bacıları Sahibə ilə Əsmaya dayaq olur. Yeganə oğul nəvəsini bilikli, savadlı görmək istəyir. 1894-cü ildə Teyyibə xanım dünyasını dəyişdikdən sonra uşaqlar yaxın qohumların himayəsində qalırlar...

Məhəmməd Hadi dünyaya açıq gözlə baxan, müasir elmlərə yiyələnən ziyalı kimi yetişmək arzusu ilə yaşayır. İstanbul və Qahirə kimi mədəniyyət mərkəzlərində təhsil almaq istəyir. Bu məqsədlə bir çox varlı qohumlarına müraciət edir, lakin ona kömək edən olmur.

Şamaxıda baş verən zəlzələdən (1902) sonra Məhəmməd Kürdəmirə köçür. Dostlarının təklifi ilə məktəbdə dərs deməyə başlayır. 1907-ci ildə Əli bəy Hüseynzadənin dəvəti ilə Bakıya gəlir. "Füyuzat" jurnalında işə düzəlir. Onun yaradıcılıq istiqamətinin möhkəmlənməsində, aşıb-daşan istedadının cilalanmasında "Füyuzat"ın böyük rolu olur. Şeir, məqalə və tərcümələri jurnalda dərc edilir. Ancaq qısa müddətdə jurnal bağlanır. Bu, şairin əhval-ruhiyyəsinə çox pis təsir göstərir. 1908-ci ildə vətənpərvər milyonçu Hacı Zeynalabdin Tağıyevin dəstəyi ilə şairin "Firdövsi-ilhamat" adlı ilk kitabı nəşr olunur.

Hadi bir müddət işsiz qalır, maddi sıxıntı keçirir. 1914-cü ildə yazdığı və qələm yoldaşlarına ithaf etdiyi "Zamanın məzhəkələrindən" şeirində düçar olduğu acınacaqlı maddi durumdan "ilhamının qəlp pula dönməsindən", qələm yoldaşları olan şairlərin sərsəri vəziyyətə düşdüklərindən acı-acı şikayət edir.

Akademik Bəkir Nəbiyev şairin yaradıcılığından bəhs edərkən yazır: "Hadi ölümündən sonra da olsa, böyük şair kimi öz obyektiv qiymətini alacağına əmin olub. "Ümid həyatın ruhudur" şeirində Hadinin istifadə etdiyi çox maraqlı bir təşbehə heç cürə laqeyd qalmaq mümkün deyil. "Bəxtim kimi olsun kəfənim, yəni siyəhnak"... Hadi bir növ vəsiyyət edir ki, onun kəfəni üçün qara parçadan istifadə olunsun; çünki bu rəng şairin qara bəxtinin rəmzidir... Lakin bu qara bəxtin, qara rəmzin özünün də axırında şair bir işıq, bir aydınlıq görüb...".



Hadi 1910-cu ilin baharında İstanbula gedir. "Tənin" qəzeti redaksiyasında Şərq dilləri üzrə tərcüməçi işləyir. Türk poeziyasında azadlıq carçıları kimi tanınan Tofiq Fikrət və Rza Tofiqlə dostluq əlaqələri qurur. Ölkədəki irtica əleyhinə "Rübab", "Sərvəti-fünun", "Sabah" qəzetlərində fəal çıxışlar edir. 1913-cü ildə fars dilinə tərcümə olunan "Fünun və maarif" şeirnə görə təqib edilir. Bu zaman Osmanlının hərbi naziri Mahmud Şövkət paşaya sui-qəsd olur. Nəzarətdə olan Hadi "Rusiyadan göndərilmiş təxribatçı" kimi Salonik şəhərinə (Yunanıstan) sürgün olunur. Şair burada bazarda çalışır və bir parça çörək üçün qəpik-quruş qazanır. Yunan polisi də Hadidən "Türkiyənin casusu" kimi şübhələnir. O, Azərbaycan şairi olduğunu heç kəsə inandıra bilmir. Hadini gəmiyə mindirib Yunanıstandan təcili xaric edirlər. Gəmidə onu Mərmərə dənizinə atıb öldürmək istəyirlər. Təsadüf nəticəsində xilas olur. Çox çətinliklə İstanbula, oradan da Batuma və nəhayət, 1914-cü ilin fevralında Bakıya qayıdır.

1914-cü ilin sonunda şairin qürbət həyatının ikinci dövrü başlanır. Dünya müharibəsi artıq bir neçə aydır başlamışdı. Hadi cəbhəyə göndərilən müsəlman diviziyasının ruhanisi kimi Azərbaycanı tərk edir. "Meydani-hərb xatirələrimdən", "Ulduzlu bir gecədə müharibə tamaşası...", "Qış günlərində odlu fəğanlar" adlı şeirlərində azadlıq arzularından bəhs edir. "Qürbət ellərdə yadi-vətən" şeirində yazır:

*Qürbət ellər əgərçi oldu yerim,*
*Sənə aid bütün düşüncələrim.*
*Ey məni bəsləyən çəmənzarım,*
*Ey xəyali-rəfiqi-əfkarım.*
*Məni şair doğan anam səndə,*
*Əbədiyyət məzarı sinəndə.*
*Çox uzaq olsa da bu tən səndən,*
*Könlüm ayrılmayır, vətən, səndən.*

Hadi 1917-ci ildə cəbhədən Sankt-Peterburqa, oradan da Gəncəyə qayıdır. Bu arada Rusiya imperiyasının süqutu, 1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin qurulması şairin romantik duyğularına qol-qanad verir. O, müstəqil Azərbaycan dövlətinə şeirlər həsr edir.

Hadinin əsərləri ən çox "Azərbaycan" qəzetində dərc olunur. Şair Cümhuriyyətin əbədiyaşarlığına, istiqlalımızın bütün Şərq dünyasına təsirsiz ötüşməyəcəyinə inanır və "Türk nəğməsi" adlı əsərini yazır:

*Qan ilə qazandıq zəfəri, verməriz əldən,*
*Xof eyləmədik ateşi-dehhase duveldən.*
*Bir zərrə belə qorxmayırız desti-əcəldən,*
*İstərsə cahan çevrilə tərsinə təməldən,*
*Türkün üzü çevrilməyəcək səmti əməldən.*

Lakin Azərbaycan ədəbiyyatında romantizmin yeni inkişaf mərhələsinə qədəm basdığı Cümhuriyyət dövrü uzun sürmür. 1920-ci ilin aprelində Azərbaycanın istiqlalı süqut edir. Həmin il Məhəmməd Hadinin vəfatı milli ədəbiyyatımızda romantizmin də ədəbi cərəyan kimi süqutuna səbəb olur...

**S.Fərəcov**

## "Mədəni irsini qoru" layihəsi Qobustandan başlayıb

Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) təşkilatçılığı, Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, Azərbaycan Gənclər Fondu və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının dəstəyi ilə "Mədəni irsini qoru" adlı layihə həyata keçirilir.

Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində gerçəkləşən infotur zamanı iştirakçılar üçün maarifləndirici seminar da təşkil olunub. İqlim dəyişikliyinin tarixi abidələrə təsiri, iqlim dəyişikliyinə təsir edən çirkləndirici tullantıların ekosistemə mənfi təsirlərinin azaldılması, ekoloji maarifləndirmə kimi mövzular ətrafında çıxış edən Qobustan Milli Tarix-Bədii Qoruğunun əməkdaşları gəncləri maraqlandıran sualları cavablandırıblar.




Layihə çərçivəsində ilk olaraq noyabrın 2-də Qobustan Milli Tarix-Bədii Qoruğuna infotur təşkil olunub.

Layihənin məqsədi ölkənin zəngin tarixi-mədəni irsinin təbliği və mühafizəsi sahəsində praktiki biliklərin artırılması, milli kadr potensialının gücləndirilməsi, gənc nəslin maarifləndirilməsinə dəstək olmaqdan ibarətdir.

Qoruğun açıq ərazisinə və muzeyə ekskursiya zamanı qoruq əməkdaşları və Tarix və Etnologiya İnstitutunun əməkdaşı Faiq İsmayılov tərəfindən maarifləndirici məlumatlar iştirakçıların diqqətinə çatdırılıb.

Layihə çərçivəsində seminar və təqdimatların yer alacağı bu kimi infoturların davamlı təşkili nəzərdə tutulub.

# Zamanın dayandığı məkanlar



Azərbaycanın qədim şəhərlərindən olan Şəkinin özünəməxsus memarlıq üslubu, fərdi vizual görkəmi var. Bu görkəmin formalaşmasında Şəki Xan sarayı, Şəkixanovların evi, karvansaralar və başqa tarixi memarlıq abidələri ilə yanaşı, yaşayış binalarının da mühüm rolu var. Bu binaların əksəriyyətini XIX əsrin sonu – XX əsrin əvvəllərində Şəkidə sənayeləşmənin və ticarətin gətirdiyi gəlir hesabına zənginləşmiş adlı-sanlı tacir ailələri inşa etmişlər.

Bu gün Şəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində dövlət qeydiyyatına alınmış 83 memarlıq abidəsi arasında həmin nəsillərə məxsus evlər öz əzəməti və gözəlliyi ilə göz oxşayır. Ənənəvi Şəki evlərinin unikal fasad elementlərini, pəncərə və qapı detallarını ehtiva edən bu memarlıq abidələri öz görünüşləri ilə sanki zamana meydan oxuyur. Ancaq hazırda həmin evlərdə XIX əsrdə Şəkinin ictimai-siyasi və iqtisadi həyatında söz sahibi olmuş ailələrin varisləri yaşamırlar.

Şəkinin, demək olar ki, bütün bəy və tacir ailələrinin taleyi bir-birlərinə bənzəyir. Sovet hökumətinin qurulması ilə başlayan kollektivləşmə nəticəsində, Azərbaycandakı bir çox bəy və zadəganlar kimi, Şəkinin də tacir və mülkədarlarının var-dövləti müsadirə olunmuş, mülkləri ayrı-ayrı qurumlara, şəxslərə bağışlanmışdı. Bütün bunlara rəğmən mülk sahiblərinin soyadı həmin binaların adına çevrilib, yüz ildən çox keçməsinə rəğmən əsl sahiblər unudulmayıb.

Şəkinin ən gözəl yerində, karvansaralardan Xan sarayına qalxan küçədə öz tarixi memarlıq görkəmi ilə göz oxşayan, uzun illərdir internat tipli məktəb olaraq istifadə olunan binalar məşhur "Dadanovlar", keçmiş uşaq evinin binası "Zülfüqarovlar", Qala divarlarından şərqdə istirahət evi və uşaq xəstəxanası olmuş mülk "Hüseynbəyovlar", Pedaqoji Texnikumun binası "Əliyevlər" nəslinin adını və xatirəsini hələ də yaşatmaqdadır.

Adları sadalanan binalar, hər nə qədər XIX əsrin memarlıq üslubunu günümüzə qədər qoruyub saxlasa da, interyer olaraq müasirləşib. Həmin binalarda daxilində o dövrdən qalma bir əşya, nə də bir nişanə var. Ancaq elə evlər də var ki, içərisində sanki zaman dayanıb. Tikildiyi dövrə aid əşyalar, mebellər, fotolar və xatirələr hələ bu evləri tərk etməyib.

Onlardan biri Şəkinin M.F.Axundzadə prospektində yerləşən 207 nömrəli evdir.





Nadir hallarda qapısı açılan ev fasad bəzəkləri ilə küçədən keçən hər kəsin diqqətini çəkir. Ev sahibləri Bakı şəhərində yaşayır, bəzən yay aylarında Şəkiyə gələndə bu evdə qalırlar. Evin sahibəsi Svetlana xanım Hüseynovadır. Svetlana xanım Dadanovlar nəslinin nümayəndəsi, Hüseynbəyovlar nəslinin gəlinidir. Atası Nütvəli Məşədi Xəlil Dadanovla məşhur Şəki milyonçusu Məmmədsadıq Əliyevin qızı Gülsüm xanımın izdivacından doğulub.

Tütün-maxorka istehsalı və ticarəti ilə məşğul olmuş Dadanovlar da, Şəki milyonçusu Əliyevlər də, ipək ticarəti ilə məşğul olmuş Hüseynbəyovlar da Şəkinin memarlıq irsinə böyük miras qoyub. "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli Qərarından irəli gələrək 3 noyabr 2021-ci il tarixində Dadanovlar ailəsinə məxsus beş, Hüseynbəyovlara məxsus dörd, Əliyevlərə məxsus üç bina hər birinə inventar nömrəsi verilməklə yerli əhəmiyyətli abidə kimi dövlət tərəfindən qeydiyyata alınıb.

Svetlana xanımın söylədiyinə görə, 207 nömrəli ev Dadanovların yaşayış evi, digər binalar isə ticarət və istehsalat obyektləri olub. Bu evə daxil olduqda insan sanki yüz il öncəyə qayıdır, zamanda səyahət edir. İkitaylı qapılardan daxil olduqca hündür tavanlı, işıqlı otaqlarda keçmişin qoxusu duyulur. Keçmiş sənətkarların zövq və səriştəsinin məhsulu olan qozqara mebellərin oyma naxışları göz oxşayır.

Ev sahibəsinin babasından qalan yadigarları məhəbbətlə qorunması, fəxrlə təqdim etməsi soykökə verilən dəyəri göstərir. O, qürur hissi ilə baba və nənəsindən, Şəkinin üç məşhur nəsli ilə qohumluğundan danışır. Ağ-qara, köhnə fotoları göstərib nəslin nümayəndələrini təqdim edir.

Şəkidə belə evlər də, belə insanlar da, belə fotolar da çoxdur. Bu dəyərli əşyaların, fotoların qorunması, tanıdılması tarixi-mədəni irsimiz üçün böyük töhfədir. Bu fotolar Şəkinin etnoqrafiyasının öyrənilməsi, geyim və zinət əşyalarının tədqiqi baxımından da əvəzsiz mənbə ola bilər.

**Zəminə Rəsulova**
**Şəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun elmi işçisi**

# 50-ni aşırdın, 100-ə nə qaldı?...

Bu suala əvvəl qəşş elədi, sonra bir neçə saniyəlik susdu. Sanki gözlərini zillədiyi nöqtədə nəyisə və ya kimisə axtardı. Sonra uşaq kimi sevinərək "Birdən soruşdun, fikirləşim, axırda deyərəm" cavabı ilə söhbətə özü ayaq verdi.

Əməkdar artist, bəstəkar Vüqar Camalzadəni çoxdan tanıyıram. Sözsüz ki, çox-çox əvvəl maraqlı layihələri, bəstələri, qulağayatımlı ladları ilə çağdaş mahnı janrımızda öz yeri var. Kimisə və hansısa üslubu, yolizi təqlid etməyib, amma öz üslubunu təsdiq edə bilib. Çoxsaylı mahnıları ilə yanaşı, tamaşa və filmlərə də musiqi yazıb. Azərbaycan Milli Konservatoriyasının dosenti, Azərbaycan Dövlət Kukla Teatrının musiqi hissə müdiridir.

Yubileyinin hesabat konsertinə, özünün də dediyi kimi, yolayrıcında yenidən özü və tamaşaçıları ilə görüşə hazırlaşır. Noyabrın 28-də Heydər Əliyev Sarayında Vüqar Camalzadənin mahnılarından ibarət "Ulduzlu gecə" adlı konsert olacaq.

*– Xoş gəldin 50, deyək?*

– Deyək, özü də elə deyək ki, bundan sonra bir 50 də olsun. Amma bu dəfə çox qəşəng olsun (gülür).

*– Bəstəkarların qəşəng ömür anlayışı, yəqin ki, həm də çoxlu musiqi əsərləridir?*

– Təbii ki, o da yaxşıdır. Amma can ağrımayanda hər şey lap yaxşı olur. Bəstəkarların işinin əsas məziyyəti oturaq həyat tərzi keçirməsidir. Məsələn, indi konsertimlə əlaqədar gün ərzində 12-14 saat oturub, əsərlərin orkestrləşməsini edirəm. Konsertdə Niyazi adına simfonik orkestr, estrada heyəti ifaçıları müşayiət edəcəklər. Zaman da az qalıb, fasiləsiz işləyirəm. Oturursan, düşünürsən, yazırsan və bir də görürsən ki, saatlar uçur. O zaman ayılırsan ki, belin ağrıyır. Bu mənada deyirəm, can sağlam, ağrı-acısız olsun, peşənin verdiyi dərdlərsiz gəlsin növbəti illər.

*– Bu, zaman itkisi təəssüratına keçsə, adam lap pis azarlayar.*

– Şükür, bu, məndə heç vaxt zaman itkisi təəssüratı yaratmayıb. O barədə düşünməmişəm. İlk simfoniyamı yazanda 24 yaşım vardı. 6 aya bəstələdim, 3 aya da orkestrləşməsini etdim. 42 dəqiqəlik simfoniyanın orkestr dili, işi çox çətin idi. O vaxt da hələ kompüterdə deyil, əl ilə yazırdıq. Həmin üç ayda gündə cəmi bir-iki saat yatırdım. Heç o yaşımda da siz deyəni hiss etmədim. Yəni musiqi mənim üçün hər zaman böyük işdir.

*– Sözsüz. Həm də insan qazanmaq üçün əvvəl qurban verməyi öyrənir.*

– Heç biz də qarğa kimi 300 il yaşamırıq (gülür). Ömür qısadır. Deməli, o zaman üzərimizə düşən missiyanı eləməliyik. Bu sənətin də işi, doğrudan da, çox ağırdır. Nəticədə tamaşaçı gəlir konsertə və oturub, məsələn, birsaatlıq əyləncə üçün dinləyir. Xoşuna gəlir, yaxud gəlmir, hər halda, əl çalıb gedir. Amma buna qədər çox ağır, dediyim və demədiyim proseslər var. İstənilən yaradıcı məhsul ona sərf olunan zamana, ömrə, enerjiyə görə qiymətləndirilməlidir. İndi o ayrı söhbətdir ki, Allah birinə az, başqasına çox istedad verir. Amma hər kəs zəhmət çəkir, axı. Bizə aid məsələ peşəkarlıqdır ki, bu da insanın özündən asılıdır və yuxarıda dediyim məqam məsələyə peşəkar yanaşmanın bir qoludur.

*– Peşəkarlıq səviyyəsini insan özü müəyyənləşdirir?*

– İstedad vergi, peşəkarlıq fəaliyyətdir.

*– Sizi ilk peşənizdən bəstəkarlığa gətirən də bu idi?*

– Təbii. Azərbaycan Dövlət Neft Akademiyasını – indiki Neft və Sənaye Universitetini – bitirdim. 5 yaşımdan musiqi yazırdım, məktəbinə getmişdim. Amma neft sənayesi üzrə təhsil aldım. O sahədə işləyə bilərdim. Musiqini də özüm üçün məşğuliyyətə çevirə bilərdim. Amma yox, bu işin peşəkarı olmalıyam deyə 6 il də konservatoriyada oxudum.

*– Mahnı janrına gəlməyinizin də bir ayrı səbəbi var. Bilirəm ki, konservatoriyada İsmayıl Hacıbəyovun kursunu bitirmisiniz. İrihəcmli musiqi əsərləri yazmaq kimi istəyiniz əvvəldən olub. Amma tale elə gətirdi ki...*

– Bəli, mahnı janrını kommersiya tərəfinə görə seçdim. Bəstəkarı yaşadan, onun maddi rifahını yaxşılaşdıran məqam böyük nisbətdə mahnılarının satılmasıdır. Düzdür, səhnə, kino musiqisi də kommersiya xarakteri daşıyır, yəni bəstəkar onun müqabilində də qonorar alır. Amma mahnıda bu bir az başqadır. Sən tez-tez sifariş alırsan və onun qiymətləndirilməsi də hansısa meyara görə yox, sifarişə görə dəyişir. İstənilən halda sən nə qədər peşəkar, istedadlı olsan da, qazanmalısan, ailə-uşaq saxlamalısan. Baxın, başqa yerdən qazancım olsaydı, daha irihəcmli, fəlsəfi düşüncələrə söykənən musiqi əsərləri yazardım. Amma çətin də olsa, öz daxili tələbatımı bir kənara qoyub gənc ikən itirdiyim valideynlərimin əvəzinə özümdən kiçik bacı-qardaşıma baxmalıydım. Məcburiyyətdən də olsa bu işi görməyə başladım.

*– Amma məcburiyyət dediyiniz sizə xeyli populyarlıq qazandırdı...*

– Çünki o işi də sevərək, özü də ən yüksək səviyyədə görməyə çalışdım. Heç vaxt heç bir mahnıma barmaqarası, sırf kommersiya maraqlı iş kimi baxmadım. Elə olurdu ki, ayda 2-3 mahnı satırdım. Bu da yaxşı təminat deməkdi və bu sayədə müəyyən məişət qayğılarımı həll elədim. Amma indi bu işləri azaltmışam, demək olar ki, saxlamışam.

*– Tələbat azaldı, yoxsa pula ehtiyac?*





– (Gülür) Heç biri. Sadəcə, müəyyən yaşımdan və mərhələdən sonra düşüncələrim yerini dəyişdi. Məsələnin əsas mahiyyəti budur ki, zövqlər pis mənada dəyişdi və hətta populyar müğənnilərimiz də qazancların artırmaq üçün başladılar daha ucuz, səviyyəcə aşağı mahnıları ifa etməyə. Sözsüz ki, özünə, peşəsinə hörmət edən bəstəkar belə şeylərə getməz. Ona görə ünvanlar da dəyişdi.

> Bəstəkar bir əsəri, həmindən asılı olmayaraq, öz daxili tələbatını ödəmək üçün yazır. Onu kiminsə duyub dinləməməyi başqa bir məqamdır. Bir də həqiqi sənət, gec də olsa, öz dəyərini alır.

*– Bu mənada 2000-ci illəri mahnı janrının populyar dövrü saymaq olar?*

– Sözsüz, 80-ci illərdən sonrakı durğunluğa inad dediyim illərdə çox gözəl nümunələr yaradan bəstəkar nəsli meydana çıxdı və yaxşı, zövqlü ifaçılar yetişdi. İndiyədək o mahnılar da, ifaçılar da populyardır. Sonra başqa bir pis, nə bilim, bəlkə də labüd tendensiya yarandı: hamı özü yazıb, özü oxumağa başladı. Sözün açığı, bir az tələbat da azaldı. Bəzən gəlib elə melodiyalar, ya da elə sözlərə musiqi istəyirlər ki, düşünürsən mən hara düşmüşəm və ya biz niyə belə olduq. Axı, bizim zəngin mahnı bəstəkarlığı məktəbimiz və ona adekvat dinləyicimiz vardı.

*– Bu, təkcə bizdə belədir, yoxsa dünyanın qulağı "paslanıb"?*

– Dediyiniz kimi, elə hər yerdə eyni problemdir. İnsanların ruh halı, həyat tərzi, dünyaya baxışı dəyişib. Elə qlobal deformasiya baş verib ki, bu nəhəng məsələ qarşısında musiqi zövqü və ya zövqsüzlüyü çox cüzi görünür.

*– İnanmıram ki, nə vaxtsa yüksək qonorar müqabilində o "diringələr"dən siz də yazmamısınız.*

– Sözün açığı bir-iki dəfə olub və inanın, indi o mahnıların altındakı imzamı gözüyumulu götürə bilərəm. Düzdür, vicdanım rahatdır, xalturadan qaçmışam. Amma özümü buna vadar kimi ağır hissdən sonra anladım ki, daha eləmərəm.

*– Vüqar müəllim, süni intellekt, yəni müvafiq proqramlar artıq mahnılar da yazır. Bunun qarşısında bir neçə aya başa gələn bəstəkar mahnısı necə tablaşa bilər? Sizcə bu, pisdir, yoxsa?...*

– Niyə, bu, çox yaxşıdır...

*– Onda da hərə özü özünün bəstəkarı olacaq ki...*

– Bu, istedadsızların qənimi, istedadlı tənbəllərin isə yaxşı mənada məşqçisidir. Siz deyən proqramın funksiyası indiyədək bazasına yığılan informasiyaların ən yaxşısını seçib ortaya gətirməkdir. Yəni o bundan artıq heç nəyi bacarmır. Olmuş şeyin ən yaxşısını seçə bilir. Ümumən min il keçsə də, texnologiya qat-qat inkişaf etsə də, insan yaradıcılığına heç nə çata bilməz.

*– Bayaq zövqümüz korşalıb dedik. Burada təkcə dinləyici günahkar deyil, axı. Zövqsüzlüyün də ciddi təbliğatı gedib.*

– Qlobal proseslər artıb, say çoxalıb, keyfiyyət aşağı düşüb və maddi məsələlər mənəvi məqamları istər-istəməz üstələyib. Müəyyən kateqoriyalaşmalar baş verib və mən buna elə də pis baxmıram.

*– Deməli, siz də o düşüncədəsiniz ki, yüksək musiqi heç də hər dinləyici üçün deyil.*

– İstəməsək də belədir və musiqi də artıq kateqoriyalaşıb. Bunun təbəqələşməyə aidiyyəti yoxdur. Kütləvi musiqinin daha minimalistik formaları meydana gəlib və bunu inkar edə bilmirik. Onu da deyim ki, musiqi nə qədər fəlsəfiləşib, nə qədər dramaturji baxımdan yüklənsə, tamaşaçısı bir o qədər az olacaq.

*– Belə çıxır ki, yaxşı musiqinin dinləyicisinin az olması həm də yaxşı mənada təsəllidir. Məsələn, elə bəstəkar var əsərini heç 300 nəfər dinləməyib.*

– Eləsi var, heç 10 nəfər qulaq asmayıb. Amma bu faciə deyil. Digər tərəfdən, bir dərin fəlsəfi məzmunlu musiqi əsərini dinləmək və anlamaq üçün heç də hər kəs özünü məcbur hiss etməməlidir. Bəstəkar bir əsəri, həmindən asılı olmayaraq, öz daxili tələbatını ödəmək üçün yazır. Onu kiminsə duyub dinləməməyi başqa bir məqamdır. Bir də həqiqi sənət, gec də olsa, öz dəyərini alır.

*– Yaxşı dinləyici zövqü, melodik yaddaş uşaqlıqdan formalaşır. Milli bəstəkarlıq məktəbimizin nəhəngləri zaman-zaman uşaqlar üçün də əsərlər yazıblar. Amma nədənsə indi çoxları buna "uşaq işi" kimi baxırlar...*

– Uşaq ilə iş çox ciddi məsələdir və səmimiyyət istəyir. O, ya bəyənir, ya da inkar edir. Ona görə də uşaq musiqisi ilə məşğul olmaq üçün onları hiss etmək və dünyasına girib, hisslərini nota çevirməlisən. Uşaqla "ləl-lə-lə" ilə danışmaq, onu yola vermək, bir gözəl əşya, oyuncaq kimi yanaşmaq özlüyündə ona edilən ən böyük pislikdir. Konkret mənim 300-ə yaxın uşaq musiqim, mahnım var. Bu işlə 2014-cü ildən məşğulam. Uşaq və kukla tamaşaları üçün musiqi yazdım. Sonra sağ olsunlar, Kukla teatrının direktoru Rəşad Əhmədzadə məni bu teatra dəvət etdi və artıq 10 ilə yaxındır ki, burada musiqi hissə müdiriyəm. Bir vaxtlar dövlət televiziyasında "7 – 17" layihəsində idim. Özümün də 17-18 yaşım vardı. Uşaq və yeniyetmələrlə işləməyi o zamandan öyrəndim.

*– Bir ara müzikl yazırdınız. Sonra dayandınız. Yubiley konsertində bu kimi sürpriz də olacaq?*

– Müzikl yazmağı, ümumən musiqi ilə bağlı gözəl, yeni nə varsa sevirəm və özümü sınamaqdan yorulmuram. Konsertə qədər səbirli olaq və əvvəldə dediyiniz suala cavab kimi ikinci 50-ni "aşırmaq" yolunda gedək. Qalanı bir not düzümü kimidir. Çətini fortepiano arxasına keçincədir (gülür).

**Söhbətləşdi: Həmidə Nizamiqızı**

## Füzulinin 530 illiyi münasibətilə ədəbi-bədii gecə

Azərbaycan Universitetində dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin (1494–1556) anadan olmasının 530 illiyi münasibətilə ədəbi-bədii gecə keçirilib.




Tədbirdə şairin zəngin bədii irsinə nəzər salınıb, tələbələrin ifasında yaradıcılığından poetik nümunələr təqdim olunub. Ədəbi-bədii kompozisiyanı Füzulinin qəzəllərinə bəstələnmiş musiqi parçaları müşayiət edib.

Tərcümə və filologiya kafedrasının müdiri Gülnar Rzayeva, kafedranın müəllimləri Hüseyn Hüseynli, Ülviyyə Əliyeva Məhəmməd Füzuli yaradıcılığından söz açıblar. Mütəfəkkir şairin Azərbaycan ədəbi fikrinin inkişafında müstəsna yeri qeyd edilib.

Qeyd edək ki, tələbələr ədəbi-bədii gecəyə Tərcümə və filologiya kafedrasının müəllimi Solmaz Süleymanovanın rəhbərliyi ilə hazırlaşıblar.

## Xatirə təqvimi (5 – 7 noyabr)

### Azərbaycan

**5 noyabr 1925** – Türkoloq, filologiya elmləri doktoru Elməddin Məhəmməd oğlu Əlibəyzadə (1925 – 26.3.2015) Oğuz rayonunun Muxas kəndində anadan olub. "Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi" və s. əsərlərin müəllifidir.

**5 noyabr 1948** – Satirik şair, qəzəlxan Baba Pünhan (Atababa Seyidəli oğlu Mədətzadə; 1948 – 17.4.2004) Bakının Kürdəxanı kəndində doğulub. Kitabları: "Acı həqiqət", "Mən nə dedim ki..." və s.

**5 noyabr 2001** – Xalq artisti Eldəniz Məmməd oğlu Zeynalov (1.1.1937 – 2001) vəfat edib. Filmlərdə, teatr və televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

**5 noyabr 2018** – Tanınmış musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru Seyran Əmir oğlu Qafarov (2.10.1969 – 2018) vəfat edib.

**6 noyabr 1931** – Şair, nasir Tofiq Mahmud (Tofiq Mahmud oğlu Mehdiyev; 1931-1997) Naxçıvan MR Şahbuz rayonunda doğulub. Uşaq və gənclər üçün əsərlərin müəllifidir.

**6 noyabr 1974** – Şair-dramaturq, tərcüməçi İslam Əhməd oğlu Səfərli (12.2.1923 – 1974) vəfat edib. Sözlərinə populyar mahnılar bəstələnib. "Göz həkimi", "Ana ürəyi", "Yolayrıcı" və s. pyeslərin müəllifidir.

**6 noyabr 2009** – Xalq yazıçısı Qılman İlkin (Qılman İsabala oğlu Musayev; 28.4.1914 – 2009) vəfat edib. Əsərləri: "Şimal küləyi", "Dəniz qapısı" və s. "Kölgələr sürünür", "Yenilməz batalyon" filmlərinin ssenarisini yazıb.

**7 noyabr 1877** – Aktyor, vokalçı Hənifə Həsən oğlu Terequlov (Məhəmmədhənifə Tanrıqulov; 1877–1942) Tiflisdə doğulub. Hacıbəyli qardaşlarının teatr truppasının, digər teatr cəmiyyətlərinin üzvü olub.

**7 noyabr 1898** – Əməkdar incəsənət xadimi, aktyor, rejissor Məmməd Əli oğlu Əlili (1898 – 13.6.1993) anadan olub. "Ögey ana", "Dağlarda döyüş" və s. filmlərin 2-ci rejissoru olub, "Dəli Kür", "Nəsimi" filmlərində çəkilib.

**7 noyabr 1905** – Teatr və kino rejissoru Şua Nəsrulla oğlu Şeyxov (1905 – 27.1.1970) anadan olub. Gənc Tamaşaçılar, Füzuli Dram teatrlarında çalışıb. "Qəribə əhvalat", "Kölgələr sürünür" (İsmayıl Əfəndiyevlə birgə) və s. filmləri çəkib.

**7 noyabr 1908** – Şair, alim, pedaqoq Maqsud Məsim oğlu Şeyxzadə (1908 – 19.2.1967) anadan olub. Bakıda təhsil alıb, sonra Daşkəndə köçüb. Özbəkistanın tanınmış ədibi olub, özbək dilində əsərlər, ssenarilər yazıb, tərcümələr edib.

**7 noyabr 1917** – Görkəmli bəstəkar, Xalq artisti Tofiq Ələkbər oğlu Quliyev (1917 – 4.10.2000) Bakıda doğulub. Azərbaycan estrada musiqisinin yaradıcılarından biridir. "Bəxtiyar", "Görüş", "Ögey ana", "Onu bağışlamaq olarmı?", "Nəsimi", "Qayınana" və s. filmlərə, tamaşalara musiqi bəstələyib. Bəstəkarlar İttifaqının sədri olub.

**7 noyabr 1917** – Xalq rəssamı Tağı Əzizağa oğlu Tağıyev (1917–1993) Bakıda anadan olub. "Qara Qarayev", "Səttar Bəhlulzadə", "Səməd Vurğun", "Koroğlu", "Babək" portretlərinin müəllifidir.

**7 noyabr 1917** – Türkoloq alim, professor İren İsgəndər bəy qızı Məlikova (Melikoff; 1917 – 9.1.2009) Peterburqda doğulub. 1919-cu ildə ailəsi Fransaya köçüb. Fransada azərbaycanlı diasporunun tanınmış simalarından olub.

**7 noyabr 1920** – Azərbaycanın ilk radio diktorlarından biri, Xalq artisti Fatma Ağacabbar qızı Cabbarova (1920 – 29.11.2010) Bakıda anadan olub. 1991-ci ilədək Dövlət Teleradio Verilişləri Şirkətində işləyib.

**7 noyabr 1925** – Əməkdar incəsənət xadimi, teatr rəssamı Əyyub Səfər oğlu Fətəliyev (1925 – 21.4.2000) İrəvanda anadan olub. Akademik Opera və Balet Teatrında quruluşçu rəssam işləyib.

**7 noyabr 1934** – Xalq artisti, tanınmış müğənni Oqtay Cəfər oğlu Ağayev (1934 – 14.11.2006) Bakıda anadan olub. Azərbaycan Dövlət Estrada Orkestrinin, Azərbaycan Televiziyası və Radiosu Estrada orkestrinin solisti olub.

**7 noyabr 1940** – Xalq artisti, xanəndə Baba Mahmudoğlu (Mirzəyev; 1940 – 6.12.2006) Qazax rayonunda doğulub. Opera tamaşalarında ("Leyli və Məcnun", "Aşıq Qərib", "Əsli və Kərəm" və s.) əsas partiyaları ifa edib.

**7 noyabr 1945** – Xalq artisti Zərnigar Fəti qızı Ağakişiyeva (1945 – 8.2.2018) Quba rayonunun Rustov kəndində anadan olub. Akademik Milli Dram Teatrında (1973-2011) çalışıb, televiziya tamaşalarında, filmlərdə ("Dantenin yubileyi", "Təhminə" və s.) maraqlı obrazlar yaradıb.

**7 noyabr 1979** – Tanınmış rejissor, aktyor Yusif Yulduz (Yusif Seyfulla oğlu Əliyev; 1905–1979) vəfat edib. Peşəkar təhsil alan ilk azərbaycanlı teatr rejissorlarındandır. Akademik Milli Dram, Opera və Balet, Gəncə, Quba və b. teatrlarda çalışıb. Filmlərdə çəkilib.

**7 noyabr 1990** – Əməkdar incəsənət xadimi, görkəmli kinorejissor, operator Əlisəttar Ələsgər oğlu Atakişiyev (25.12.1906 – 1990) vəfat edib.

### Dünya

**5 noyabr 1913** – İngilis aktrisası, "Oskar" mükafatçısı Vivyen Li (Vivien Leigh – Vivian Mary Hartley; 1913–1967) anadan olub.

**5 noyabr 1938** – Yəhudi əsilli Fransa müğənnisi və bəstəkar Co Dassen (Joseph Dassin; 1938–1980) anadan olub.

**6 noyabr 1814** – Belçikalı musiqi aləti ustası, saksofonun yaradıcısı Adolf Saks (Antoine-Joseph (Adolphe) Sax; 1814–1894) anadan olub.

**7 noyabr 1810** – Macar bəstəkarı, pianoçu və dirijor Erkel Ferens (Erkel Ferenc; 1810–1893) anadan olub.

**7 noyabr 1913** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1957) laureatı Alber Kamyu (Albert Camus; 1913 – 4.1.1960) anadan olub. Ekzistensializm fəlsəfəsinin tanınmış nümayəndəsidir. Əsərləri: "Vəba", "Özgə", "Sizif haqqında mif", "Qiyamçı adam", "Şeytanlar" və s.

**Hazırladı: V.Orxan**

## "Aşıq dastanları"nın 2-ci cildi çapdan çıxıb

*Azərbaycan Aşıqlar Birliyində (AAB) ərsəyə gətirilmiş daha bir kitab elmi ictimaiyyətin və geniş oxucu kütləsinin ixtiyarına verilib.*

Elmi məsləhətçisi AAB-nin sədri Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı olan və üç cilddə nəşri nəzərdə tutulan "Aşıq dastanları"nın 2-ci cildi çapdan çıxıb.

Kitabın tərtibçilərindən AAB-nin katibi Əməkdar mədəniyyət işçisi, Musa Nəbioğlu bildirib ki, bu cildə on bir dastan daxildir: "Yetim Aydın", "Əsli və Kərəm", "Qul Mahmud və Nigar xanım", "Məsum və Dilafruz", "Alı xan və Pəri", "Məhəmməd və Güləndam", "Nəcəf və Pərizad", "Şahzadə Əbülfəz", "Səyyad və Səadət", "Abdulla və Cahan", "Aşıq Hüseyn və Reyhan xanım".

Dastanlar M.Qasımlının aparıcılığı ilə "Mədəniyyət" kanalında AzTV və AAB-nin birgə layihəsi kimi efirə gedən "Saz-söz məclisi" verilişində geniş ictimaiyyətə təqdim olunub, sonra isə aşıqların dilindən yazıya alınaraq bu nəşrə daxil edilib. Birinci cilddə olduğu kimi, bu cildin hazırlanmasında da əsas məqsəd aşıq dastanlarının çağdaş aşıqların repertuarında geniş yer tutmasına çalışmaq, dastan ifaçılığına yeni nəfəs gətirməkdir.

Nəşrin özəlliyi bir də ondadır ki, buradakı dastanların hamısı canlı ifadan yazıya alınıb, sovet dövründə gedən ixtisar və müdaxilələrə yol verilməyib, sufi-dərviş simvolikası, eləcə də dini-irfani obraz və deyimlərə toxunulmayıb, xalq koloriti və aşıq leksikonunun əsas səciyyəsi qorunub, dastanların strukturu olduğu kimi saxlanılıb.

Musiqişünas və folklor araşdırıcıları üçün xüsusilə dəyərli töhfə olan kitabı hazırlayanlar Əməkdar elm xadimi Məhərrəm Qasımlı, filologiya üzrə elmlər doktoru, professor Mahmud Allahmanlı, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu və filologiya üzrə fəlsəfə doktoru, dosent Altay Məmmədli, redaktoru Aynur Xəlilovadır.

# "Təbiətdə tarazlıq"

## Bakıda italiyalı monumental heykəltaraşın sərgisi



*əvvəli səh. 1-də*

Sərginin açılışında Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, mədəniyyət naziri Adil Kərimli, digər rəsmilər, diplomatlar, tanınmış incəsənət xadimləri iştirak ediblər.

Açılış mərasimində çıxış edən Anar Ələkbərov öz sərgisinin Azərbaycanda keçirilməsi üçün göstərdiyi dəstəyə görə Lorenso Kuinnə təşəkkürünü bildirib. O, COP29 günlərində Bakıya gələcək qonaqların da bu incəsənət nümunələrini bəyənəcəyinə ümidvar olduğunu bildirib.

"365 Art" şirkətinin təsisçisi, sərginin kuratoru Olqa Daniele tədbirin yüksək səviyyədə təşkilinə görə Heydər Əliyev Mərkəzinə minnətdarlığını bildirib. Qeyd edib ki, Lorenso Kuinn öz əsərlərində eşqə, məhəbbətə, planetimizə olan vurğunluq hisslərini əsas tutur.

Diqqətə çatdırılıb ki, Bakı sərgisində müəllifin 15 əsəri yer alır.

Lorenso Kuinn əsərlərinin təbiətin gücünü təcəssüm etdirdiyini bildirib: "Biz Yer kürəsini sevməliyik. Necə ki, ana övladına yanaşır. Yer kürəsinə hörmət etməliyik, necə ki, öz anamıza hörmət edirik. Bizim yaşamaq üçün başqa məkanımız yoxdur...".

Sonra Heydər Əliyev Mərkəzinin qarşısında və foyesində təqdim olunan heykəltaraşlıq nümunələrinə baxış keçirilib.

"Sevgi birliyi" kompozisiyası dünyaya qarşılıqlı sevgi və dəstək çağırışıdır. Çünki bəşəriyyətdə mükəmməl harmoniya içində əbədi bir əlaqə qurmaq imkanı məhz bu hisslər sayəsində mümkündür.

"Özünü sev" ("Love Yourself") əsəri özünə sevgi vasitəsilə məhəbbəti əks etdirmək, bu hissi dünya ilə paylaşmağa çağırır.

"Perspektivdə" ("İn Perspective") adlı heykəltaraşlıq nümunəsi isə dünyamızın nə qədər zərif və kainatla müqayisədə çox kiçik olduğunu əks etdirir.









Bununla Lorenso Kuinn insanları yaşadığımız dünyanı perspektivdə qiymətləndirməyə çağırır.

"Tanrının əli" ("Hand of God") müəllifin şedevrlərindən hesab olunur. Əsərdə bükülmüş halda olan insan yorğun şəkildə qollarını aşağı salaraq, onu dəstəkləyən nəhəng bir əlin ovcundadır. Lorenso bu əsərini oğluna həsr edib. "Tanrının əli" diqqəti uşaqların real həyatda üzləşdiyi təhlükələrə cəlb edir. Bu əl sonradan Kuinnin digər monumental işlərində mərkəzi elementə çevrilib.

Lorensonun Bakıya gətirilən digər işi "Birlikdə" ("Together") adlanır. Bu kompozisiyanın Gizada (Misir) nümayişi ilə ilk dəfə müasir incəsənətin piramidaya yaxın olmasına icazə verilmişdi.

Monumental kompozisiya 2021-ci ildə Kann şəhərində, 2023-cü ildə isə Dubayda təqdim olunub. Əsərdə insana həm yaratmağa, həm də məhv etməyə imkan verən əllər təsvir olunub. Bununla rəssam hər şeyin öz əlimizdə olduğuna inanır.

"Təbiətin gücü" ("Force of Nature") kövrək, lakin çox güclü qadın obrazını təcəssüm etdirir. Burada ana təbiətin özü canlandırılır.

"Balanslaşdırılmış dünya" ("A Balanced World") əsəri də müəllifin həssas ideyasının daşıyıcısıdır. Eksponat "bəzən dünyalarımız bir-birinə əks qütblərdə görünsə də, mən həyatımda yalnız səninlə mükəmməl tarazlıqdayam" söyləyir.

"Bəxş et və al" ("Give and Take") əsəri ilə heykəltaraş diqqəti həyatda, o cümlədən təbiətdə tarazlığın önəminə yönəldir. Bu əsər su üzərində ilk dəfə Azərbaycanda nümayiş etdirilir.

"Oskar" mükafatçısı aktyor Entoni Kuinn və geyim dizayneri, aktrisa İolanda Addolorinin ailəsində doğulan Lorenso Nyu-Yorkda İncəsənət Akademiyasında təhsil alıb. Rəssam olmağı planlaşdırsa da, enerjisini və orijinal ideyalarını daha yaxşı ifadə etmək üçün taleyini heykəltaraşlıqla bağlamaq qərarına gəlir. Aktyor kimi də tanınaraq filmlərdə rol alıb.

"Hisslərin yaradıcısı", "emosiyaların rəssamı" kimi tanınan Lorenso son dövrlərdə ən çox maraq görən heykəltaraşlardan biridir. Onun əsərləri 2025-ci il mayın 11-dək Heydər Əliyev Mərkəzinin parkında və foyesində nümayiş olunacaq.

# UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə dair dəyirmi masa

Dünya Şəhərlər Günü (31 oktyabr) münasibətilə Mədəniyyət Nazirliyi tərəfindən Heydər Əliyev Mərkəzində UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə dair dəyirmi masa təşkil edilib.

Tədbirdə UNESCO-nun Yaradıcı Sənayelər Şəbəkəsinin tarixi, əhəmiyyəti və məqsədləri haqqında məlumat verilib. Yaradıcı Şəhərlər Şəbəkəsində yer alan Şəki, Bakı və Lənkəran şəhərləri ilə bağlı təqdimatlar olub. Qeyd olunub ki, şəhərlərimiz bu çərçivədə bir sıra layihələr həyata keçirib, yerli və beynəlxalq səviyyədə yaradıcılığın təşviqi ilə bağlı tədbirlər təşkil edib.




Şəbəkədə şəhərlərimizin daha aktiv fəaliyyətinin təşkili məqsədilə koordinasiya mexanizmlərinin təkmilləşdirilməsi, şəbəkəyə üzv olan digər şəhərlərlə əməkdaşlığa dair təkliflər səslənib.

Bildirilib ki, Azərbaycanın digər şəhərlərinin də Şəbəkəyə daxil edilməsi üçün müvafiq namizədliklərin UNESCO Katibliyinə təqdim olunması istiqamətində işlər aparılır.

Xatırladaq ki, Azərbaycanın Şəki şəhəri "sənət və sənətkarlıq" tematikası üzrə 2017-ci ildən, Bakı şəhəri "dizayn" tematikası üzrə 2019-cu ildən, Lənkəran şəhəri isə "qastronomiya" tematikası üzrə 2021-ci ildən UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinin üzvüdür.

## Xronoqraf

# Tarixdə bu gün

## Olaylar, faktlar (5 – 8 noyabr)



### 365 il əvvəl...

**7 noyabr 1659-cu ildə** Fransa ilə İspaniya arasında 1635-ci ildə başlanan müharibə Pireney sülhünün imzalanması ilə nəticələnib. İspaniya sərhəd bölgələrdəki bəzi əraziləri, o cümlədən nəzarətində olan Niderlandın bir hissəsini Fransaya verdi. Əvəzində Fransa zəbt etdiyi Kataloniya ərazilərini İspaniyaya qaytardı.

### 107 il əvvəl...



**7 noyabr 1917-ci ildə** Rusiyada tarixə "Böyük Oktyabr Sosialist İnqilabı" kimi düşmüş bolşevik üsyanı qələbə çalıb. Üsyan noyabrın 6-da (köhnə təqvimlə 24 oktyabr) Petroqradda (Sankt-Peterburq) başlanmışdı. "Müvəqqəti hökumət"in yerləşdiyi "Qış sarayı"nın alınması noyabrın 7-nə keçən gecə baş verdi. "Tavriya" zalında çıxış edən Vladimir Lenin hakimiyyətin sovetlərin (bolşeviklərin) əlinə keçdiyini bəyan etdi.

### 105 il əvvəl...

**5 noyabr 1919-cu ildə** Türkiyənin Antep şəhəri Fransa qüvvələri tərəfindən işğal olunub. Bundan öncə, 1918-ci ilin dekabrında şəhər ingilislərin nəzarətinə keçmişdi. Fransız işğalı 1921-ci ilin dekabrınadək sürdü. Qurtuluş savaşında azad olunan şəhər qazilik ünvanı alaraq Qaziantep adlandırıldı.

### 98 il əvvəl...



**6 noyabr 1926-cı ildə** Azərbaycan Radiosu fəaliyyətə başlayıb. Bakıda ilk radiostansiyanın verilişlərinin gündəlik efir vaxtı 2 saat təşkil edirdi. 1956-cı il fevralın 14-də Bakı Televiziya studiyası fəaliyyətə başladı. 6 noyabr Azərbaycanda radio və televiziya işçilərinin peşə bayramı günüdür.

### 75 il əvvəl...

**7 noyabr 1949-cu ildə** Abşeron yarımadasının 40 km cənub-şərqində, Xəzərin Azərbaycan sektorundakı "Qara daşlar" adlanan yerdə ilk neft quyusu fontan vurub. "Qara daşlar"ın fəthi 1947-ci ildə məşhur neftçi-geoloq, "Azneftkəşfiyyat"ın rəisi Sabit Orucovun rəhbərliyi ilə başlanmış, 1948-ci ilin noyabrında ilk neft desantı ərazidə məskən salmışdı. Sonralar bu yerdə dəniz şəhəri – polad dirəklər üzərində Neft Daşları salındı.

### 57 il əvvəl...

**8 noyabr 1967-ci ildə** Bakı metrosu sərnişinlərə xidmət göstərməyə başlayıb. Paytaxtda 5 yeraltı stansiya – "Bakı Soveti" ("İçərişəhər") – "26 Bakı komissarı" ("Sahil") – "28 Aprel" ("28 May") – "Gənclik" – "Nərimanov" xətti istifadəyə verilib. Respublika rəhbərliyinin iştirakı ilə Bakı metrosunun rəsmi açılışı 6 noyabrda olsa da, metro nəqliyyatı kütləvi istifadəyə 7 Noyabr bayramından (1917-ci il Sosialist inqilabının ildönümü, sovet dövründə qeyri-iş günü idi – red.) sonrakı gün verilib. 8 noyabr Bakı metropoliteni işçilərinin peşə bayramı günüdür.

**Hazırladı: V.Orxan**

# "Müasir incəsənətdə Göbəklitəpə"

## 12 min il yaşı olan məkan rəssamların gözü ilə

Oktyabrın 31-də Azərbaycan Milli Xalça Muzeyində Bakı Yunus Əmrə İnstitutunun təşkilatçılığı ilə "Müasir incəsənətdə Göbəklitəpə" adlı sərginin açılışı oldu.



Mərasimdə mədəniyyət nazirinin müavinləri Səadət Yusifova, Murad Hüseynov, Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı, millət vəkilləri, incəsənət xadimləri iştirak edirdi.

Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova diqqətə çatdırdı ki, Yunus Əmrə İnstitutu və Türkiyə Xarici İşlər Nazirliyinin dəstəyi ilə ərsəyə gələn sərgidə qardaş ölkədən 30 rəssamın bəşəriyyətin mühüm arxeoloji kəşflərindən olan Göbəklitəpəyə həsr etdikləri əsərlər yer alıb: "Sərginin mövzusu bəşəri dəyərə malikdir. Sərginin COP29 ərəfəsində açılması da böyük əhəmiyyət kəsb edir".

Bakı Yunus Əmrə İnstitutunun rəhbəri Səlçuk Karakılıc bildirdi ki, UNESCO-nun Dünya İrs Siyahısına daxil olan 12 min il əvvələ aid Göbəklitəpə arxeoloji abidəsi bəşəriyyətin ən qədim yaşayış məskənlərindən biri və Yer üzündəki ilk ibadət yeri, məbəd sayılır. Bir çox bəşəri suallara yeni cavablar təqdim edən bu füsunkar arxeoloji ərazi nəhəng daş strukturları ilə tanınır.



Səfir Cahit Bağcı çıxışında bu sərgi ilə Türkiyənin mədəni zənginliyini paylaşdıqlarına görə məmnunluğunu ifadə etdi: "Bu layihələr iki qardaş ölkə olaraq tariximizin, qədim mədəni sərvətlərimizin tanıdılması baxımından önəm kəsb edir".

Sərginin kuratoru Siret Uyanık diqqətə çatdırdı ki, Göbəklitəpə arxeoloji sahəsi, Şanlıurfa şəhərinin mərkəzindən 18 kilometr şimal-şərqdə, Örencik kəndi yaxınlığında yerləşir. Ərazi 1963-cü ildə İstanbul və Çikaqo Universitetlərinin birgə aparılan tədqiqatları zamanı aşkar olunub. Qazıntılara 1995-ci ildə Almaniya Arxeologiya İnstitutunun professoru Klaus Şmitin rəhbərliyi ilə başlanılıb və 10 min ildən çox torpaq altında qalmış "gizli xəzinə" üzə çıxarılıb.

Yaşayış sahəsi kimi istifadə edilməyən bu yerdə çoxsaylı məbəd tikililərin qalıqları var. Bölgənin Neolit dövrünün inanc mərkəzi olduğunu deməyə əsas verən və bu günə qədər 6-sı aşkar edilən, lakin geomaqnit ölçmələri ilə ümumi sayının 20-yə çatdığı müəyyən edilən monumental tikililərin formaları biri-birinə oxşardır. Neolit dövründə hündürlüyü 6 metrə qədər olan "T" şəkilli sütunlara həkk olunan, daşlar üzərində təsvir olunmuş qədim və bəziləri üçölçülü olan heyvan təsvirləri əcdadlarımızın bədii istedadını üzə çıxarır.

Göbəklitəpə bir çox yeni məlumat ortaya çıxarsa da, tapıntılarla bağlı hələ də cavabı məlum olmayan suallar elm adamlarını narahat edir. Bu məbədləri kimin tikdiyi, çəkisi 60 tona qədər olan sütunların buraya necə daşınaraq ucaldıldığı, niyə tonlarla torpaq və daşla örtülərək basdırıldığı, məbədlərin məqsədinin tam olaraq nə olduğu, cavabını gözləyən və yəqin ki, illərlə araşdırma tələb edəcək sirlərdir.

Noyabrın 6-dək davam edəcək sərgi layihəsinin məsləhət şurasının üzvləri professorlar Aydın Ayan, Alaybəy Karoğlu və Teymur Rzayevdir.

**Lalə Azəri**

# İlin sonunadək 61 milyon turist

2024-cü ilədək Türkiyənin turizm üzrə ziyarətçi hədəfi 61 milyona yüksəldilib. Daha öncə bu hədəf 60 milyon turist olaraq qeyd edilmişdi.

Pandemiyadan əvvəlki 2019-cu ilin eyni dövrü ilə müqayisədə ölkəyə gələnlərin sayı 18,3 faiz, ötən ilə nisbətən isə 8,7 faiz artıb. İlin doqquz ayı ərzində ölkə turizmdən 46,9 milyard dollar gəlir əldə edib.

Bu barədə məlumatları Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy açıqlayıb.

Onun sözlərinə görə, Türkiyə cari ilin üçüncü rübündə turizm sahəsindən 23,2 milyard dollar gəlir əldə edib ki, bu da sahə üzrə rüb hesabı ilə ən yüksək rəqəmdir. Qeyd edilib ki, 2024-cü ildə Türkiyəyə gələn turistlər arasında Rusiya (5,5 milyon), Almaniya (5,2 milyon) və Böyük Britaniya (3,7 milyon) vətəndaşları ilk üçlükdə yer alır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2592
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641